NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ AZƏRBAYCANIN ƏN DƏYƏRLİ, QABAQCIL ALİ MƏKTƏBLƏRİNDƏN BİRİDİR

HEYDƏR ƏLİYEV



YENİ FİKİR

TƏSİSÇİ: NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ

24 iyul 2026-cı il, cümə № 7 (76)

# NDU ilə AzTU arasında qarşılıqlı Anlaşma Memorandumu imzalanıb



Naxçıvan Dövlət Universiteti ilə Azərbaycan Texniki Universiteti arasında qarşılıqlı Anlaşma Memorandumu imzalanıb.

Memorandum əməkdaşlığın genişləndirilməsi, elmi-tədqiqat fəaliyyətinin gücləndirilməsi və innovativ layihələrin həyata keçirilməsini nəzərdə tutur.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev universitetin son illərdə elm, təhsil və beynəlxalq əməkdaşlıq sahələrində əldə etdiyi nailiyyətlərdən və qarşıda duran hədəflərdən bəhs edib. Bildirib ki, bugünkü əməkdaşlıq çərçivəsində kibertəhlükəsizlik, informasiya təhlükəsizliyi və rəqəmsal dayanıqlılıq sahələrində birgə tədris, elmi-tədqiqat və innovasiya layihələri həyata keçiriləcək.

Rektor qeyd edib ki, təhlükəsizlik əməliyyat mərkəzləri, təhlükə kəşfiyyatı, bulud təhlükəsizliyi, süni intellektin təhlükəsizliyi və məlumatların qorunması istiqamətlərində də tərəflər arasında əməkdaşlıq nəzərdə tutulur.

Azərbaycan Texniki Universitetinin rektoru Vilayət Vəliyev isə qeyd edib ki, əməkdaşlığa əsasən süni intellekt, maşın və dərin öyrənmə, generativ süni intellekt, agent əsaslı sistemlər, qərar dəstəyi sistemləri və məsuliyyətli AI sahələrində birgə tədqiqat və tədris fəaliyyətləri təşkil olunacaq. Eyni zamanda doktorantların elmi fəaliyyətinin dəstəklənməsi məqsədilə birgə elmi rəhbərlik, müştərək dissertasiya tədqiqatları, seminarlar və mentorluq proqramları reallaşdırılacaq.

Sənəddə beynəlxalq və milli qrant proqramları çərçivəsində birgə layihələrin hazırlanması, nəticələrin birgə nəşri, energetika, telekommunikasiya, süni intellekt, Big Data və ki bertəhlükəsizlik istiqamətlərində birgə laboratoriyaların və innovasiya mərkəzlərinin yaradılması imkanları da əksini tapıb.

Tərəflər həmçinin elmi konfransların, simpoziumların, qısamüddətli kursların təşkili, ömürboyu təhsil proqramlarının həyata keçirilməsi, innovativ tədris təcrübələrinin paylaşılması və elmi-metodik nəşrlərin mübadiləsi sahələrində əməkdaşlıq edəcəklər.

Qeyd olunub ki, universitetlər Türk Dövlətləri Təşkilatı, Dünya Bankı, Asiya İnkişaf Bankı və digər donor qurumların maliyyələşdirdiyi beynəlxalq və regional qrant proqramlarında birgə iştirak imkanlarını da araşdıracaqlar.

Sonda tərəflər arasında hədiyyələr təqdim olunub, xatirə şəkli çəkdirilib.









*Badəm Əliyeva*
*Media və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı*

## *Naxçıvan Dövlət Universiteti Dünya Reytinq sıralamasında ən yaxşı universitetlər siyahısında yer alıb*

Məmnunluqla bildiririk ki, Naxçıvan Dövlət Universiteti dünyanın ən nüfuzlu ali təhsil reytinq təşkilatlarından biri olan Times Higher Education tərəfindən açıqlanan THE Impact Rankings 2026 nəticələrinə əsasən, 1603 universitet arasında dünyanın ən yaxşı 801-1000 universiteti sıralamasında yer alıb.


Universitetimiz Dayanıqlı İnkişaf Məqsədləri (SDGs) üzrə fəaliyyətlərinin qiymətləndirildiyi reytinqdə aşağıdakı nəticələri əldə edib:

- SDG 3 – Sağlamlıq və rifah: 801-1000
- SDG 4 – Keyfiyyətli təhsil: 401-600
- SDG 7 – Əlçatan və təmiz enerji: 401-600
- SDG 8 – Layiqli əmək və iqtisadi artım: 801-1000
- SDG 9 – Sənaye, innovasiya və infrastruktur: 601-800
- SDG 10 – Bərabərsizliyin azaldılması: 301-400
- SDG 11 – Dayanıqlı şəhərlər və icmalar: 601-800
- SDG 17 – Məqsədlər naminə tərəfdaşlıq: 601-800

Naxçıvan Dövlət Universiteti ümumi qiymətləndirmədə 55.4 bal toplayaraq qlobal miqyasda ən yaxşı universitetlər arasında mövqeyini möhkəmləndirib.

Bu nəticə universitetimizin təhsil, tədqiqat, innovasiya, sosial məsuliyyət və dayanıqlı inkişaf sahələrində həyata keçirdiyi fəaliyyətlərin beynəlxalq səviyyədə tanınmasının göstəricisidir.

Naxçıvan Dövlət Universitetinin bütün kollektivini təbrik edirik!



# SOCAR-ın nümayəndə heyəti Naxçıvan Dövlət Universitetində

SOCAR nümayəndə heyətinin tərkibinə vitse-prezident Ziba Mustafayeva, Kommunikasiya məsələləri üzrə icraçı direktor Aygün Hüseynova, Aparat rəhbəri Hafiz Zeynalov, Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov və digər şəxslər daxildirlər. Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev ilə keçirilən görüşdə tərəflər arasında əməkdaşlığın inkişaf perspektivləri nəzərdən keçirilib, birgə layihələrin nəticələri, təlimlərin, seminarların və sertifikat proqramlarının təşkili məsələləri müzakirə olunub.



Bu xüsusda, tərəflər arasında üç il əvvəl imzalanan əməkdaşlıq müqaviləsində nəzərdə tutulan istiqamətlər üzrə mühüm nəticələrin əldə olunduğu və layihələrin uğurla icra edildiyi bildirilib. SOCAR və BANM-in təşəbbüslərinin universitetin inkişafına mühüm töhfə verdiyi vurğulanıb. Söhbət zamanı tərəflər, həmçinin "İnformasiya təhlükəsizliyi" ixtisası üzrə təhsil alan tələbələr üçün təcrübə imkanlarının genişləndirilməsi, mühəndislik istiqamətləri üzrə peşəkar hazırlıq proqramlarının təşkili və akademik mübadilə proqramlarına dair fikir mübadiləsi aparıblar.

Bu istiqamətdə SOCAR-ın həyata keçirdiyi Gənc İstedadlar Proqramının universitet tələbələri üçün yaratdığı inkişaf imkanları və onların gələcəkdə SOCAR-da, xüsusilə SOCAR-ın Naxçıvan Muxtar Respublikasının ərazisində fəaliyyət göstərən struktur qurumlarında təcrübə proqramlarına cəlb olunma perspektivləri barədə məlumat verilib.





Daha sonra SOCAR nümayəndə heyəti Universitetin İncəsənət fakültəsinin müəllim və tələbələrinin əl işlərindən ibarət sərgi ilə tanış olub.Universitetin "İnformasiya təhlükəsizliyi" ixtisası üzrə təhsil alan tələbələri ilə keçirilən görüşdə Naxçıvan Dövlət Universiteti ilə Bakı Ali Neft Məktəbi arasında formalaşan tərəfdaşlığın təhsil və elm sahəsində əlaqələrin genişlənməsi üçün yeni imkanlar yaratdığı bildirilib. Çıxışlarda tələbələrin nəzəri biliklərinin praktiki bacarıqlarla zənginləşdirilməsi, beynəlxalq təcrübənin paylaşılması və gələcək əməkdaşlıq istiqamətlərinin əhəmiyyəti vurğulanıb. Görüş çərçivəsində Bakı Ali Neft Məktəbi tərəfindən təşkil olunan təlim proqramını uğurla başa vuran Naxçıvan Dövlət Universitetinin "İnformasiya təhlükəsizliyi" ixtisası tələbələrinə sertifikatlar təqdim edilib. Tədbir çərçivəsində "Tomas Qolts: Neft Odisseyası" sənədli filmi nümayiş olunub.

Sonda xatirə fotosu çəkdirilib.

# Naxçıvanda III karyera sərgisi təşkil olunub

Naxçıvan şəhərində Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti və Naxçıvan Dövlət Universitetinin təşkilatçılığı ilə "Karyera sərgisi 2026" keçirilib.

Tədbirin açılışında çıxış edən Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli ölkədə həyata keçirilən sosial-iqtisadi siyasətin əsas istiqamətlərindən birinin məşğulluğun artırılması və insan kapitalının inkişaf etdirilməsi olduğunu bildirib. Samir Seyidəhmədli dövlət, ali təhsil müəssisələri və özəl sektor arasında əməkdaşlığın gənclərin məşğulluğunun təmin edilməsində mühüm rol oynadığını vurğulayıb. Əmək bazarında şəffaf işə qəbul mexanizmlərinin formalaşdırılmasının, namizədlərin yalnız diplomla deyil, peşəkar bacarıqlar, sertifikatlar, könüllü fəaliyyət və fərdi təşəbbüslər əsasında qiymətləndirilməsinin vacibliyini diqqətə çatdırıb.













Naxçıvan Muxtar Respublikasının Baş naziri Cabbar Musayev Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın muxtar respublikanın davamlı inkişafını təmin edən mühüm strateji sənəd olduğunu bildirib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar nəticəsində muxtar respublikada yeni iş yerlərinin yaradıldığını, sahibkarlığın inkişafının dəstəklənd iyini və vətəndaşların sosial rifahının yüksəldilməsi istiqamətində mühüm addımlar atıldığını vurğulayıb. Baş nazir qeyd edib ki, muxtar respublikada işsiz və işaxtaran şəxslərin məşğulluğunun təmin olunması məqsədilə əmək yarmarkaları təşkil edilir, peşə hazırlığı kursları keçirilir, özünüməşğulluq proqramları icra olunur və peşəyönümlü xidmətlər göstərilir.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev çıxışında universitetlə əmək bazarı arasında əlaqələrin daha da gücləndirilməsinin vacibliyini bildirib. Qeyd edib ki, Naxçıvan Dövlət Universiteti Naxçıvanda ən geniş işəgötürən müəssisə olmaqla yanaşı, yüksəkixtisaslı kadr hazırlığında da mühüm rol oynayır. Rektor vurğulayıb ki, universitetdə tələbələrin praktiki bacarıqlarının inkişaf etdirilməsi, onların peşəkar formalaşmasına dəstək verilməsi və əmək bazarının tələblərinə uyğun kadr hazırlığı istiqamətində ardıcıl iş aparılır.

Elbrus İsayev əvvəlki illərdə təşkil olunan karyera sərgilərinin nəticələrinə də toxunaraq bildirib ki, əvvəlki iki karyera sərgisində 200-ə yaxın namizəd işlə təmin olunub.

Naxçıvan MR-in Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Fərid Bağırzadə bildirib ki, Cənab Prezident İlham Əliyevin aqrar sektorun inkişafı, ərzaq təhlükəsizliyinin gücləndirilməsi və müasir kənd təsərrüfatının formalaşdırılması ilə bağlı verdiyi tapşırıqlar bu sahədə yüksəkixtisaslı mütəxəssislərə olan tələbatı daha da artırır. Nazir vurğulayıb ki, bu gün qarşımızda duran əsas vəzifələrdən biri də həmin çağırışlara cavab verə biləcək peşəkar insan kapitalının hazırlanması və gənclərin əmək bazarına uğurlu inteqrasiyasının təmin edilməsidir.

"Ləzzət Qida Sənaye" MMC-nin direktoru Teymur Rzayev çıxışında müasir əmək bazarında baş verən sürətli dəyişikliklərdən və iş dünyasının yeni tələblərindən danışıb. Qeyd edib ki, gələcəyin əmək bazarında uğur qazanmaq üçün gənclər yalnız nəzəri biliklərlə kifayətlənməməli, rəqəmsal savadlılıq, süni intellekt alətləri ilə işləmək bacarığı, kommunikasiya, liderlik, analitik düşüncə və təşəbbüskarlıq kimi bacarıqlarını inkişaf etdirməlidirlər.

İstanbul Universiteti Cərrahpaşa və Naxçıvan Dövlət Universitetinin professoru, İstanbul Universiteti Cərrahpaşa – Karyera Mərkəzinin müdiri Aysel Ersoy çıxışında biliklərin sürətlə yeniləndiyi müasir dövrdə ömürboyu öyrənmənin vacibliyini vurğulayıb. Professor qeyd edib ki, gələcəyin uğurlu mütəxəssisləri dəyişikliklərə uyğunlaşan, öz üzərində daim çalışan və peşəkar inkişafını fasiləsiz davam etdirən şəxslər olacaq.

Sərgi çərçivəsində ümumilikdə 2346 vakansiya təqdim olunub. Bunlardan 2066-sı dövlət sektoruna, 280-i isə özəl sektora aiddir. Tədbir iştirakçılar üçün əmək bazarının mövcud imkanları ilə tanış olmaq, işəgötürənlərlə birbaşa əlaqələr qurmaq və gələcək karyeralarını planlaşdırmaq baxımından mühüm platforma rolunu oynayıb.

***Gülay Tahirli***
***Media və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı***

# “Karyera Sərgisi 2026” çərçivəsində panel müzakirələr və təlimlər keçirilib

Xəbər verdiyimiz kimi, Naxçıvan şəhərində Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti və Naxçıvan Dövlət Universitetinin təşkilatçılığı ilə “Karyera Sərgisi 2026” keçirilib.

Sərgi çərçivəsində tələbə və məzunların peşəkar inkişafına həsr olunan panel müzakirələr və təlimlər təşkil edilib. Tədbirlərdə “Industry Challenge”, “NDU-dan liderliyə”, “Future Skills Lab – Hansı bacarıqlar uğur gətirəcək?” mövzuları ətrafında müzakirələr aparılıb, həmçinin “Karyera planlaması” mövzusunda təlim baş tutub.






Panel müzakirələri və təlimlərdə Çalık Energy şirkətinin Baş icraçı direktoru, professor Temel Kotil, futurist, GİSA Qrupun Baş icraçı direktoru, professor Kamil Kazım Sarı, Naxçıvan Dövlət Universitetinin uğurlu məzunları – millət vəkili, NMR Rəssamlar Birliyinin sədri Ülviyyə Həmzəyeva, Naxçıvan Şəhər Məhkəməsinin sədri Gülnar Səfərəliyeva, NDU Xəstəxanasının baş həkimi Elmar Rzayev, həmçinin Gənclərin İnkişaf və Karyera Mərkəzinin nümayəndələri Jalə Həsənova və Coşqun İsmayılov iştirakçılarla peşəkar təcrübələrini bölüşərək əmək bazarının tələbləri, gələcəyin peşələri, rəqəmsal bacarıqlar, süni intellekt, liderlik, sahibkarlıq və karyera planlaması ilə bağlı tövsiyələr veriblər.



# NDU molekulyar biologiya sahəsində yeni əməkdaşlığa imza atıb

Naxçıvan Dövlət Universiteti ilə AR ETN Molekulyar Biologiya İnstitutu arasında Əməkdaşlıq Memorandumu imzalanıb. Memorandum elmi-tədqiqat fəaliyyətinin inkişafı, yüksəkixtisaslı kadr hazırlığı, innovativ layihələrin həyata keçirilməsi, birgə laboratoriyaların yaradılması, birgə elmi nəşrlərin hazırlanması, konfrans, seminar və təlimlərin təşkili istiqamətlərini əhatə edir.



Əməkdaşlıq çərçivəsində tərəflər müasir texnologiyaların tətbiqi, elmi araşdırmaların genişləndirilməsi, tələbə və gənc tədqiqatçıların elmi fəaliyyətə cəlb olunması, eləcə də nəzəri və praktiki kursların təşkili sahəsində birgə fəaliyyət göstərəcəklər.

Sənədə Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev və AR ETN Molekulyar Biologiya İnstitutunun direktoru İradə Hüseynova imza atıblar.

Müqavilənin imzalanmasına həsr olunan tədbirdə çıxış edən Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev universitetin elm və təhsil sahəsində əməkdaşlıqlarının genişləndirilməsinin prioritet istiqamətlərdən biri olduğunu bildirib. Rektor qeyd edib ki, Molekulyar Biologiya İnstitutu ölkənin aparıcı elmi-tədqiqat müəssisələrindən biri kimi zəngin elmi potensiala malikdir. Vurğulayıb ki, NDU-da biologiya, biokimya, kimya mühəndisliyi və digər təbiət elmləri istiqamətləri üzrə formalaşmış möhkəm elm və tədris bazası ilə institutun elmi imkanlarının birləşdirilməsi hər iki tərəf üçün yeni əməkdaşlıq perspektivləri yaradacaq.

Molekulyar Biologiya İnstitutunun direktoru İradə Hüseynova çıxışında rəhbərlik etdiyi elmi müəssisənin fəaliyyət istiqamətləri barədə məlumat verib. O bildirib ki, institutda ərzaq təhlükəsizliyi, molekulyar biologiya, biotexnologiya və bitki genetikası sahələrində mühüm tədqiqatlar aparılır, beynəlxalq əməkdaşlıqlar uğurla davam etdirilir və beş beynəlxalq laboratoriya fəaliyyət göstərir. İradə Hüseynova fotosintez prosesinin öyrənilməsi, günəş enerjisindən səmərəli istifadə, qlobal iqlim dəyişikliklərinin təsirlərinin araşdırılması və məhsuldar buğda sortlarının yaradılması istiqamətlərində həyata keçirilən tədqiqatlardan bəhs edib. Akademik Naxçıvanın zəngin dərman bitkiləri ehtiyatlarının birgə elmi araşdırmalar üçün geniş imkanlar yaratdığını vurğulayıb.



Çıxışlarda təbiət elmləri sahəsində tədqiqatların genişləndirilməsi, beynəlxalq əməkdaşlığın gücləndirilməsi və regionun elmi potensialından daha səmərəli istifadənin vacibliyi qeyd olunub. Bildirilib ki, əməkdaşlıq gələcəkdə yeni elmi layihələrin və innovativ təşəbbüslərin həyata keçirilməsinə mühüm töhfə verəcək.

Sonda qarşılıqlı hədiyyələr təqdim edilib, xatirə şəkli çəkdirilib.

*Gülay Tahirli*
*Media və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı*

# Naxçıvan Dövlət Universiteti ilə Çinin daha bir nüfuzlu universiteti arasında Anlaşma Memorandumu imzalanıb

Naxçıvan Dövlət Universiteti ilə Çin Xalq Respublikasının Urumçi Peşə Universiteti (Urumqi Vocational University) arasında təhsil, elm və innovasiya sahələrində əməkdaşlığın inkişaf etdirilməsini nəzərdə tutan Anlaşma Memorandumu imzalanıb. İmzalanma mərasimi onlayn formatda keçirilib.

Sənədə əsasən, tərəflər qarşılıqlı maraq doğuran sahələrdə birgə elmi-tədqiqat layihələrinin həyata keçirilməsi, tədris və elmi fəaliyyət istiqamətində əməkdaşlığın genişləndirilməsi, müəllim, tələbə və inzibati heyət mübadiləsinin təşkili barədə razılığa gəliblər.

“Naxçıvan Dövlət Universiteti çoxillik tarixə, zəngin akademik ənənələrə, geniş ixtisas strukturuna və yüksək keyfiyyətli kadr hazırlığına malik nüfuzlu ali təhsil müəssisəsidir. Universitet Azərbaycanda beynəlxalq səviyyədə rəqabətqabiliyyətli mütəxəssislərin hazırlanmasında mühüm rol oynayır”.

Bu sözləri Naxçıvan Dövlət Universiteti ilə Çinin Urumçi Peşə Universiteti arasında Anlaşma Memorandumunun imzalanma mərasimində Urumçi Peşə Universitetinin prezidenti Tang Xiaobing deyib.

“İnanıram ki, iki universitet arasında möhkəm əməkdaşlıq bazası və geniş perspektivlər qarşılıqlı fəaliyyətimizə yeni dinamika qazandıracaq.



Universitetimiz əldə olunmuş əməkdaşlıq razılaşmalarının həyata keçirilməsi istiqamətində fəal addımlar atacaq.

Müəllim və tələbə mübadiləsi, birgə tədris proqramları, elmi seminarlar, akademik müzakirələr və mədəni mübadilə layihələri kimi praktik fəaliyyətləri ardıcıl şəkildə inkişaf etdirəcəyik.




Təhsili körpü kimi qəbul edərək iki universitet arasındakı dostluq əlaqələrini daha da möhkəmləndirəcək, Çin və Azərbaycan ali təhsil sistemləri arasında təcrübə mübadiləsinə töhfə verəcək və iki ölkə arasında dostluq münasibətlərinin inkişafına universitetlərimizin gücü ilə dəstək olacağıq”, - deyə Tang Xiaobing əlavə edib.

# NDU ilə Aqrar Sığorta Fondu arasında əməkdaşlıq







Naxçıvan Dövlət Universiteti ilə Aqrar Sığorta Fondu arasında əməkdaşlıq haqqında Memorandum imzalanıb. Sənədi Azərbaycan Respublikası Kənd Təsərrüfatı nazirinin müavini İlhamə Qədimovanın iştirakı ilə universitetin rektoru Elbrus İsayev və Fondun İdarə Heyətinin sədri Fuad Sadıqov imzalayıblar. Saziş aqrar sığorta sahəsində kadr hazırlığı, tələbələrin praktiki biliklərinin artırılması və təhsil-istehsalat əməkdaşlığının genişləndirilməsini əhatə edir.

Memorandumda tələbələr üçün sertifikatlı istehsalat təcrübələrinin təşkili, 2-3 aylıq praktik proqramların həyata keçirilməsi, eləcə də məzunların və istedadlı gənclərin Aqrar Sığorta Fondu və aidiyyəti sığorta şirkətlərində iş imkanlarının dəstəklənməsi nəzərdə tutulur. Bundan əlavə, birgə təlim və seminarların keçirilməsi, elmi-tədqiqat layihələrinin icrası və aqrar sığorta sahəsində bilik mübadiləsinin genişləndirilməsi də əməkdaşlığın əsas istiqamətlərindəndir.

NDU-nun rektoru Elbrus İsayev çıxışında bildirib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə kənd təsərrüfatının inkişafı ölkənin prioritet istiqamətlərindən birinə çevrilib və bu sahədə həyata keçirilən islahatlar aqrar sektora marağı əhəmiyyətli dərəcədə artırıb. Rektor qeyd edib ki, Naxçıvan Dövlət Universitetində son illərdə aqrar təhsil və elmi-tədqiqat imkanlarının genişləndirilməsi istiqamətində mühüm addımlar atılıb, Təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsində müasir tədris bazası formalaşdırılıb. Elbrus İsayev universitetin Nəbatət bağının həm elmi-tədqiqat, həm də praktik tədris üçün mühüm platforma olduğunu vurğulayaraq "Bitki mühafizəsi" kimi yeni ixtisasların yaradılmasının kadr hazırlığında keyfiyyəti artırdığını bildirib.

Azərbaycan Respublikası Kənd Təsərrüfatı nazirinin müavini İlhamə Qədimova çıxışında aqrar sığortanın kənd təsərrüfatında dayanıqlı inkişafın əsas alətlərindən biri olduğunu qeyd edib. Bildirib ki, bu mexanizm fermerləri təbii risklərdən qorumaqla yanaşı, onların istehsal fəaliyyətinə etimadı artırır və kənd təsərrüfatına investisiya axınını stimullaşdırır. Nazir müavini həmçinin vurğulayıb ki, təhsil müəssisələri ilə istehsalat qurumları arasında qurulan əməkdaşlıq gənc mütəxəssislərin praktik bacarıqlarının formalaşmasında mühüm rol oynayır. Onun sözlərinə görə, imzalanan Memorandum tələbələrin real iş mühitinə daha yaxın şəkildə hazırlanmasına və sahə üzrə ixtisaslaşmış kadrların yetişdirilməsinə şərait yaradacaq.

Aqrar Sığorta Fondunun İdarə Heyətinin sədri Fuad Sadıqov isə çıxışında aqrar sığorta sahəsində peşəkar kadr potensialının gücləndirilməsinin vacibliyini ön plana çəkib. Bildirib ki, bu sahə üzrə ixtisaslı mütəxəssislərin hazırlanması sistemin dayanıqlılığı və effektivliyi baxımından mühüm əhəmiyyət daşıyır.

Sonda tərəflər arasında qarşılıqlı hədiyyələr təqdim olunub və xatirə fotosu çəkdirilib.

# NDU-nun 56-cı Məzun Günü – rekord sayda məzun, möhtəşəm konsert proqramı, unudulmaz anlar

Naxçıvan şəhər Saat Meydanında Naxçıvan Dövlət Universitetinin sayca 56-cı Məzun Günü keçirilib.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və Vətən uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Daha sonra universitetin son bir il ərzində əldə etdiyi uğurları, həyata keçirdiyi layihələri və yaddaqalan anları əks etdirən videoçarx nümayiş etdirilib.

Tədbir musiqi sədaları altında universitetin müxtəlif təhsil pillələri üzrə məzunların təntənəli keçidi ilə davam edib. Universitetin bütün fakültələrinin, Magistratura və Doktorantura Mərkəzinin, həmçinin NDU nəzdində fəaliyyət göstərən Texniki Kollec, Musiqi Kolleci və Tibb Kollecinin, eləcə də Gimnaziyanın məzunları mərasimdə iştirak ediblər.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev çıxış edərək məzunları təbrik edib, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb. Rektor bildirib ki, bu il universitet tarixində 2347 məzunla ən böyük məzun buraxılışı həyata keçirilir. Elbrus İsayev qeyd edib ki, Naxçıvan Dövlət Universiteti bu günədək 43848 məzun yetişdirib və həmin məzunlar ölkənin müxtəlif dövlət və özəl qurumlarında uğurla fəaliyyət göstərərək universiteti layiqincə təmsil edirlər. 12 minə yaxın tələbə kontingenti ilə universitetin dövlətin prioritetlərinə uyğun peşəkar kadr hazırlığını uğurla davam etdirdiyi vurğulanıb.

Çıxışında Ümummilli Lider Heydər Əliyevin təhsilə və gənclərə göstərdiyi xüsusi diqqət və qayğının bu gün də uğurla davam etdirildiyini vurğulayan rektor cənab Prezident İlham Əliyevin gənclərə göstərdiyi yüksək etimadın onların üzərinə böyük məsuliyyət qoyduğunu bildirib. Elbrus İsayev məzunların qazandıqları bilik və bacarıqlarla dövlətimizin inkişafına layiqli töhfələr verəcəklərindən əminliyini ifadə edib.

Daha sonra Naxçıvan Dövlət Universitetinin fəxri məzunu, tarix üzrə fəlsəfə doktoru, dosent Bəhlul İbrahimli çıxış edərək bildirib ki, bu gün Naxçıvan Dövlət Universiteti beynəlxalq səviyyədə nüfuz qazanan ali təhsil müəssisəsinə çevrilib. Universitetin son illərdə əldə etdiyi uğurları yüksək qiymətləndirən fəxri məzun bu inkişafın hər bir məzun üçün qürurverici olduğunu vurğulayıb.

Universitetin əcnəbi məzunları adından Tibb fakültəsinin məzunu Saime Buse Güven və bütün tələbələr adından NDU-nun "Heydər Əliyev adına təqaüd"çüsü, Tarix-filologiya fakültəsinin məzunu Əziz
















Vəliyev çıxış edərək tələbəlik illərinin xatirələrini bölüşüb, yaradılan imkanlara, keyfiyyətli təhsilə görə NDU rəhbərliyinə və bütün professor-müəllim heyətinə minnətdarlıqlarını bildiriblər. Tədbirdə Ümumi Orta Müvəffəqiyyət Göstəricisinə (ÜOMG) görə fakültə birincilərinə və tələbə təşkilatlarında xüsusi fəallığı ilə seçilən məzunlara təşəkkür plaketləri təqdim olunub.

Məzun Günü atəşfəşanlıq və Murad Arif ilə Miri Yusifin iştirakı ilə keçirilən konsert proqramı ilə davam edib.

# NDU rektoru UNEC Zaqatala filialının yaradılması münasibətilə keçirilən silsilə tədbirlərdə iştirak edib

UNEC Zaqatala filialının yaradılmasının 10 illik yubileyi münasibətilə silsilə tədbirlər təşkil olunub. Tədbirlərdə Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev də iştirak edib.

Yubiley proqramı çərçivəsində Zaqatala Heydər Əliyev Mərkəzində "Rəqəmsallaşma dövründə regional universitet modeli" mövzusunda beynəlxalq konfrans keçirilib. Tədbir çərçivəsində yeni yaradılmış Turizm Otağının, Azərbaycan Respublikasının Əməkdar elm xadimi, professor Məsud Əfəndiyevin






adını daşıyan auditoriyanın və Regional İnnovasiya Mərkəzinin açılışı olub.

Beynəlxalq elmi-praktiki konfrans çərçivəsində keçirilən "Regional universitetlərin regionların sosial-iqtisadi inkişafına təsiri" mövzusunda dəyirmi masada çıxış edən NDU rektoru universitetin inkişaf strategiyası və regional ali təhsilin gələcək perspektivləri barədə fikirlərini bölüşüb.

Elbrus İsayev çıxışında bildirib ki, Naxçıvan Dövlət Universiteti muxtar respublikada yerləşməsinə baxmayaraq, təşkilati-struktur və kampus modeli baxımından ölkə əhəmiyyətli ali təhsil müəssisəsidir. Universitet əcnəbi tələbələrin sayına görə ölkədə lider mövqedə qərarlaşıb, əcnəbi professorların cəlb olunması istiqamətində fəaliyyəti ilə isə qlobal əhəmiyyət daşıyan ali təhsil ocaqlarından biri kimi tanınır.

Qeyd olunub ki, blokada şəraitində fəaliyyət göstərən yeganə universitet olmasına baxmayaraq, hazırda NDU tələbələrinin təxminən 30 faizi Azərbaycanın müxtəlif bölgələrindən, 25 faizi isə dünyanın 22 ölkəsindən formalaşır. Bu göstəricinin universitetin cəlbedici və dayanıqlı inkişaf strategiyasının nəticəsi olduğu vurğulanıb.

Çıxış zamanı NDU-da son beş ildə uğurla tətbiq olunan Triple Helix (universitet-sənaye-dövlət əməkdaşlığı) modeli və onun universitetin inkişafına verdiyi töhfələrdən də bəhs edilib.

Elbrus İsayev beynəlxalq ali təhsil siyasətində regional universitet anlayışının dəyişdiyini diqqətə çatdıraraq bildirib ki, bu gün əsas meyar universitetin yerləşdiyi məkan deyil, yerinə yetirdiyi missiyadır. Bu kontekstdə NDU-nun fəaliyyətinin üç əsas istiqamətdə inkişaf etdiyi qeyd olunub: regional təsir (iqtisadi, sosial və mədəni inkişafın dəstəklənməsi), milli təsir (dövlət siyasətinə, iqtisadiyyata və ali təhsil sisteminə töhfə) və qlobal təsir (beynəlxalq elm, innovasiya və tərəfdaşlıqlar vasitəsilə qlobal akademik məkanda fəal iştirak).

Dəyirmi masa çərçivəsində regional universitetlərin inkişafına dair bir sıra təkliflər də səsləndirilib. Təkliflər sırasında regional universitetlərin fəaliyyətinin qiymətləndirilməsi zamanı "üçüncü missiya" indikatorlarının nəzərə alınması, reytinqlərin məqsəd deyil, regional inkişafı dəstəkləyən vasitə kimi qəbul edilməsi, istehsalat müəssisələrinin universitetlərin tərəfdaşına çevrilməsi, region universitetlərinə professor-müəllim heyətinin rotasiya əsasında ezam olunması mexanizminin tətbiqi və region universitetlərinin gələcək inkişaf strategiyalarında ixtisaslaşma modelinə keçidin təşviqi yer alıb.



Səfər çərçivəsində tədbirin yüksək səviyyədə təşkilinə və göstərilən qonaqpərvərliyə görə Ədalət Muradov başda olmaqla təşkilatçılara təşəkkür ifadə olunub. Qeyd edilib ki, UNEC modeli Zaqatala filialında uğurla tətbiq edilir və regionun sosial-iqtisadi inkişafına mühüm töhfə verir. Həmçinin vurğulanıb ki, regionda UNEC filialının fəaliyyət göstərməsi ali təhsilin əlçatanlığını artırmaqla yanaşı, ölkənin yüksəkixtisaslı kadr hazırlığına da mühüm dəstək verir.

# NDU və İTÜ Nanotexnologiya Mərkəzinin yaradılması istiqamətində birgə fəaliyyətini davam etdirir



Naxçıvan Dövlət Universitetinin nümayəndə heyəti İstanbul Texniki Universitetinə işgüzar səfəri çərçivəsində İTÜ Nanotexnologiya Tətbiq və Araşdırma Mərkəzini (ITUnano) ziyarət edib.

Bu səfər Naxçıvan Dövlət Universiteti ilə İstanbul Texniki Universiteti arasında imzalanmış əməkdaşlıq müqaviləsinin icrası çərçivəsində yaradılmış birgə işçi qruplarının fəaliyyətinin davamı olaraq həyata keçirilib. Tərəflər Naxçıvan Dövlət Universitetində Nanotexnologiya Mərkəzinin yaradılması istiqamətində birgə fəaliyyətlərini davam etdirirlər.

Səfər çərçivəsində nümayəndə heyəti İTUnano-nun müasir elmi-tədqiqat infrastrukturu, yüksək texnologiyalarla təchiz olunmuş laboratoriyaları və nanotexnologiya sahəsində həyata keçirilən innovativ araşdırmalarla, eyni zamanda mikro və nanoölçülü məhsulların hazırlanması üçün xüsusi şəraitə malik Cleanroom (Təmiz otaq) kompleksi ilə yaxından tanış olub. Burada tətbiq edilən qabaqcıl texnologiyalar və elmi-tədqiqat imkanları barədə ətraflı məlumat verilib.

Keçirilən görüşlərdə nanotexnologiya sahəsində birgə elmi-tədqiqat layihələrinin hazırlanması, müasir laboratoriya infrastrukturunun qurulması, alim və tədqiqatçı mübadiləsi, magistr və doktorantların birgə hazırlanması, eləcə də beynəlxalq qrant layihələrində ortaq iştirak imkanları müzakirə olunub.






Universitetdə yaradılması planlaşdırılan Nanotexnologiya Mərkəzi tədqiqat potensialının gücləndirilməsi, yüksək texnologiyalar sahəsində yeni elmi istiqamətlərin formalaşdırılması və beynəlxalq elmi əməkdaşlığın daha da genişləndirilməsi baxımından strateji əhəmiyyət daşıyır.

# Naxçıvan Dövlət Universiteti Bayburtda keçirilən beynəlxalq Dədə Qorqud festivalında uğurla təmsil olunub

Naxçıvan Dövlət Universitetinin nümayəndə heyəti Türkiyənin Bayburt şəhərində keçirilən 30-cu Beynəlxalq Dədə Qorqud Elm, Mədəniyyət və İdman Şölənində uğurla iştirak edərək Azərbaycan milli-mədəni irsini beynəlxalq auditoriyaya təqdim ediblər.

Festivalın açılış mərasimi Bayburt Şəhər İdman Salonunda keçirilib. Tədbirdə Naxçıvan Dövlət Universitetinin rektoru, Bayburt Universitetinin rektoru, şəhər rəhbərliyi və rəsmi şəxslər iştirak ediblər. Naxçıvan Dövlət Universitetinin Saz çalanlar ansamblı Türkiyə-Azərbaycan qardaşlığını tərənnüm edən musiqi nömrələri, Yallı qrupu isə "Köçəri" yallısı ilə çıxış edərək tamaşaçıların böyük rəğbətini qazanıb.

Festival çərçivəsində iştirakçı ölkələrin nümayəndələri Bayburt valisi, bələdiyyə başçısı və Bayburt Universitetinin rektoru ilə görüşüblər. Görüşlər zamanı qarşılıqlı hədiyyələr təqdim olunub, xatirə şəkilləri çəkdirilib. Həmçinin festival iştirakçıları arasında keçirilən boulinq yarışında Naxçıvan Dövlət Universitetinin komandası II yerə layiq görülüb.










Konsert proqramları çərçivəsində universitetin Yallı qrupu "Söylə", "Ağbaba" və "Tənzərə" yallılarını, saz ifaçıları isə "Naxçivani", "Şəşəngi" və digər aşıq havalarını təqdim ediblər. NDU kollektivinin çıxışları festival iştirakçıları və tamaşaçılar tərəfindən maraqla qarşılanıb.

Festival proqramına Bayburt sənətkarlarının əl işlərindən ibarət sərgiyə baxış, Dədə Qorqud Şəhər Muzeyinə ekskursiya və Dəmirözü Su Anbarına təşkil olunan gəzinti də daxil olub.

Şölənin bağlanış mərasimində Naxçıvan Dövlət Universitetinə iştirak sertifikatı, kollektiv üzvlərinə isə fərdi sertifikatlar təqdim edilib. Tədbir xatirə fotosunun çəkilməsi ilə başa çatıb.

# NDU-da təcrübələrin yekun konfransı keçirilib – 26 tələbə ilə əmək müqaviləsi bağlanılıb

Təcrübə müddətində Naxçıvan Dövlət Universitetinin 26 tələbəsi ilə müxtəlif müəssisələr tərəfindən əmək müqaviləsi bağlanılıb. Bu barədə Naxçıvan Dövlət Universitetində 2025-2026-cı tədris ilində keçirilən pedaqoji və istehsalat təcrübələrinin yekununa həsr olunan konfransda məlumat verilib. Qeyd olunub ki, bu nəticə tələbələrin təhsil aldıqları müddətdə əmək bazarına uğurlu inteqrasiyasının və universitet-sənaye əməkdaşlığının səmərəli təşkilinin göstəricisidir.

Konfransdan əvvəl İncəsənət fakültəsində təcrübəçi tələbələrin təcrübə müddətində qazandıqları nailiyyətləri əks etdirən təcrübə kitabçaları, hesabatlar, təşəkkürnamələr və müxtəlif ixtisaslar üzrə hazırladıqları əl işlərindən ibarət sərgiyə baxış keçirilib.

Tədbiri giriş sözü ilə açan NDU-nun Tədris departamentinin direktoru Şahin Əliyev bildirib ki, pedaqoji və istehsalat təcrübələri tələbələrin nəzəri biliklərinin praktik bacarıqlarla möhkəmləndirilməsi, peşə hazırlığının artırılması və əmək bazarına daha səmərəli inteqrasiyasının təmin edilməsi baxımından mühüm əhəmiyyət daşıyır. O qeyd edib ki, tələbələr təcrübə müddətində nizam-intizam qaydalarına ciddi əməl edib, pedaqoji təcrübədə müasir interaktiv təlim metodlarından səmərəli istifadə edib, istehsalat təcrübəsində isə texnoloji və idarəetmə proseslərində fəallıq nümayiş etdiriblər. Şahin Əliyev təcrübələrin uğurla başa çatmasında əməyi olan təcrübə rəhbərlərinə, müəllimlərə və tərəfdaş müəssisələrə təşəkkürünü bildirib.











Daha sonra pedaqoji və istehsalat təcrübələrinin gedişini əks etdirən videoçarx nümayiş olunub.

Tədbirdə çıxış edən Təcrübə və məzunlarla iş sektorunun müdiri Asiman İsmayılov bildirib ki, universitetin ümumilikdə 1838 nəfər buraxılış kurs tələbəsi təcrübəyə cəlb olunub. Onlardan 68 ixtisas üzrə I yarımildə 102, II yarımildə 1339 tələbə 46 müxtəlif müəssisədə təşkil olunan istehsalat təcrübəsində iştirak edib, təcrübələrə 130 müəllim rəhbərlik edib. Həmçinin 20 ixtisas üzrə 397 tələbə pedaqoji təcrübəyə cəlb olunub, prosesə 43 müəllim rəhbərlik edib. Pedaqoji təcrübələr Naxçıvan Dövlət Universitetinin nəzdində Gimnaziyada, Naxçıvan şəhərində yerləşən 12 ümumtəhsil məktəbində və Babək rayonunun Şıxmahmud kənd tam orta məktəbində təşkil olunub.

Vurğulanıb ki, ölkə Prezidentinin müvafiq Sərəncamı ilə 2026-cı ilin "Şəhərsalma və Memarlıq ili" elan olunması ilə əlaqədar təcrübəçi tələbələr bu istiqamətdə maarifləndirici tədbirləri fərdi iş planlarına daxil ediblər. Təcrübə müddətində, həmçinin təcrübəçi tələbələrin təşəbbüsü ilə "Zəfər" bilik yarışı və vətənpərvərlik mövzusunda müxtəlif maarifləndirici tədbirlər təşkil edilib.

Konfransın bədii hissəsində İncəsənət fakültəsinin "Aktyor sənəti" ixtisası üzrə təcrübəçi tələbələrinin hazırladığı "İdeal kimdir?" tamaşası izlənilib.

Sonda 2025-2026-cı tədris ilində fərqlənən tələbələrə təşəkkürnamə təqdim olunub.

# NDU-nun nümayəndə heyəti Yıldız Texniki Universitetində

Naxçıvan Dövlət Universiteti ilə Yıldız Texniki Universiteti arasında imzalanmış Əməkdaşlıq Memorandumu çərçivəsində elm, təhsil və innovasiya sahələrində qarşılıqlı əlaqələrin genişləndirilməsi, xüsusilə




biotexnologiya istiqamətində mövcud əməkdaşlığın daha da inkişaf etdirilməsi məqsədilə Naxçıvan Dövlət Universitetinin nümayəndə heyəti Türkiyə Respublikasının İstanbul şəhərində yerləşən Yıldız Texniki Universitetinə akademik səfər həyata keçirib.

Səfərdə Naxçıvan Dövlət Universitetinin Təbiətşünaslıq və Kənd təsərrüfatı fakültəsinin dekanı, professor Daşqın Qənbərov, "Biologiya" kafedrasının müdiri, kənd təsərrüfatı üzrə fəlsəfə doktoru Bəhruz Bayramov və universitetin Biotexnologiyalar Mərkəzinin müdiri Əli Quliyev iştirak ediblər.

Səfərin əsas məqsədi Naxçıvan Dövlət Universitetində fəaliyyət göstərən Biotexnologiyalar Mərkəzinin maddi-texniki bazasının və elmi-tədqiqat imkanlarının təkmilləşdirilməsi, müasir biotexnoloji metodların tətbiqi sahəsində qabaqcıl təcrübənin öyrənilməsi, həmçinin biotexnologiya istiqamətində tədris olunan ixtisasların beynəlxalq standartlara uyğun şəkildə inkişaf etdirilməsi olub.



Ziyarət çərçivəsində nümayəndə heyəti Yıldız Texniki Universitetinin müasir tədris laboratoriyaları, elmi-tədqiqat mərkəzləri və Biotexnologiya Araşdırmaları Kompleksi ilə yaxından tanış olmuşdur. Laboratoriyalarda tətbiq edilən molekulyar biologiya, gen mühəndisliyi, hüceyrə və toxuma kulturası, mikrobiologiya, bioinformatika və bioproses mühəndisliyi istiqamətlərində aparılan elmi-tədqiqatlar, istifadə olunan innovativ cihazlar və analiz metodları ətraflı şəkildə öyrənilib.

Görüşlər zamanı hər iki universitet arasında birgə elmi layihələrin hazırlanması, beynəlxalq qrant proqramlarında ortaq iştirak, müəllim və tələbə mübadiləsinin genişləndirilməsi, doktorant və magistrantların birgə elmi-tədqiqat fəaliyyətlərinin təşkili, eləcə də müasir biotexnologiya sahəsində ixtisaslaşmış kadr hazırlığının gücləndirilməsi məsələləri müzakirə edilib.

Eyni zamanda Naxçıvan Dövlət Universitetində biotexnologiya sahəsində yeni ixtisasların yaradılması və mövcud təhsil proqramlarının beynəlxalq təcrübəyə uyğun təkmilləşdirilməsi istiqamətində fikir mübadiləsi aparılmış, bu sahədə Yıldız Texniki Universitetinin uzun illər ərzində formalaşdırdığı akademik təcrübənin tətbiqi imkanları dəyərləndirilib.

Bu əməkdaşlıq hər iki ali təhsil müəssisəsi arasında elmi inteqrasiyanın gücləndirilməsi, müasir biotexnologiya sahəsində innovativ tədqiqatların təşviqi və beynəlxalq səviyyədə rəqabətqabiliyyətli mütəxəssislərin hazırlanması baxımından mühüm əhəmiyyət kəsb edir.

# NDU ilə Çin ali təhsil müəssisələri arasında Əməkdaşlıq Memorandumlarının icrasına başlanılıb

Naxçıvan Dövlət Universiteti ilə Pekin Kimya Texnologiyaları Universiteti arasında imzalanan Əməkdaşlıq Memorandumunun icrası çərçivəsində universitetin 10 nəfərdən ibarət nümayəndə heyəti Çin Xalq Respublikasının paytaxtı Pekin şəhərində ali təhsilin idarə edilməsi sahəsində təşkil olunmuş bir həftəlik beynəlxalq təlim proqramını uğurla başa vurub.

Təlimlər ümumilikdə 120 saat davam edən proqram çərçivəsində Çinin nüfuzlu ali təhsil müəssisələrindən olan Beijing University of Chemical Technology




və Beijing Information Science and Technology University tərəfindən təşkil olunub.

Proqramın əsas məqsədi ali təhsil müəssisələrinin idarə edilməsi sahəsində müasir yanaşmaların öyrənilməsi, beynəlxalq təcrübənin mənimsənilməsi və universitetlər arasında akademik əməkdaşlığın genişləndirilməsi olub.




Təlimlər zamanı iştirakçılar Çində ali təhsilin idarəetmə modeli, universitetlərin strateji inkişaf mexanizmləri, rəqəmsal transformasiya, keyfiyyət təminatı, innovasiya ekosisteminin formalaşdırılması, süni intellekt texnologiyalarının təhsil prosesinə inteqrasiyası, beynəlxalq reytinq sistemləri, elmi-tədqiqatların idarə olunması, universitet-sənaye əməkdaşlığı, eləcə də ali təhsildə yeni tendensiyalar və qlobal inkişaf istiqamətləri üzrə geniş məlumat əldə ediblər.

NDU nümayəndə heyəti interaktiv mühazirələr, seminarlar, panel müzakirələri və praktik sessiyalar vasitəsilə Çinin ali təhsil sisteminin uğur modelini yaxından öyrənmək, qabaqcıl idarəetmə təcrübələri ilə tanış olmaq və bu təcrübələrin universitetdə tətbiqi imkanlarını qiymətləndirmək imkanı qazanıb.

Proqram yalnız akademik məzmunla məhdudlaşmayıb. Təlim çərçivəsində təşkil olunan mədəni fəaliyyətlər iştirakçılara Çinin zəngin tarixi, çoxəsrlik mədəni irsi, milli dəyərləri və müasir inkişaf modeli ilə yaxından tanış olmaq imkanı yaradıb. Bu görüşlər iki ölkə arasında qarşılıqlı anlaşmanın möhkəmlənməsinə və mədəni əlaqələrin daha da inkişafına mühüm töhfə verib.



Sözügedən beynəlxalq təlim proqramı Naxçıvan Dövlət Universitetində akademik və inzibati heyətin peşəkar inkişafının gücləndirilməsi, eləcə də müasir idarəetmə yanaşmalarının tətbiqi istiqamətində atılan mühüm addımlardan biridir.

# NDU-nun 221 tələbəsi və həkim-rezidenti Türkiyənin 6 nüfuzlu universitetində yay təcrübə proqramına başlayıb

2025-2026-cı tədris ilində Naxçıvan Dövlət Universiteti ilə Türkiyə Respublikasının İstanbul – Cərrahpaşa Universiteti, Ankara Universiteti, Qazi Universiteti, Dokuz Eylül Universiteti, Akdeniz Universiteti və Qaradəniz Texniki Universiteti arasında qüvvədə olan əməkdaşlıq müqavilələri və qarşılıqlı Anlaşma Memorandumlarına uyğun olaraq, NDU-nun müvafiq ixtisaslar üzrə təhsil alan tələbələri adıçəkilən ali təhsil müəssisələrində yay təcrübəsi keçiblər.

Beynəlxalq akademik əməkdaşlığın inkişafına xidmət edən bu proqram çərçivəsində təcrübə prosesinin yüksək səviyyədə təşkili, tələbələrin nəzəri biliklərinin praktiki bacarıqlarla möhkəmləndirilməsi, təcrübə proqramının tam və keyfiyyətlə mənimsənilməsinin təmin edilməsi, onların fəaliyyətinin əlaqələndirilməsi, davamiyyət və intizam qaydalarına riayət olunmasına nəzarətin həyata keçirilməsi, eləcə də yarana biləcək təşkilati məsələlərin operativ həlli məqsədilə universitet üzrə təsdiq edilmiş bölgüyə əsasən rəhbər-kuratorlar təyin edilib və müvafiq vəzifələrin icrasına cəlb olunublar.

Yay təcrübəsi proqramında Tibb, Stomatologiya, Əczaçılıq, Psixologiya, İctimai səhiyyə və Hərbi tibb ixtisasları üzrə təhsil alan 221 tələbə və həkim-rezident iştirak edib.

Qeyd edək ki, sözügedən proqram Naxçıvan Dövlət Universitetinin beynəlxalq əlaqələrinin genişləndirilməsi, tələbələrin müasir tibbi təcrübə ilə yaxından tanış olması, peşəkar bilik və bacarıqlarının inkişaf etdirilməsi, eləcə də Azərbaycan-Türkiyə ali təhsil əməkdaşlığının daha da möhkəmləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Bundan əlavə, Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin professor-müəllim heyətindən 21 nəfər 2025-2026-cı tədris ili çərçivəsində Türkiyə Respublikasının İstanbul – Cərrahpaşa, Ankara, Qazi, Dokuz Eylül, Akdeniz və Qaradəniz Texniki universitetlərində təşkil olunan ixtisasartırma proqramında iştirak edib.




Beynəlxalq akademik əməkdaşlıq çərçivəsində həyata keçirilən proqramın əsas məqsədi professor-müəllim heyətinin peşəkar bilik və bacarıqlarının təkmilləşdirilməsi, müasir tədris və klinik təcrübənin öyrənilməsi, elmi əməkdaşlığın genişləndirilməsi və qabaqcıl beynəlxalq təcrübənin universitetdə tətbiqinə töhfə verməkdir.

# Tibb fakültəsinin tələbə və müəllim heyəti Türkiyənin Qaradəniz Texniki Universitetinin Farabi Xəstəxanasında

Təcrübə proqramı çərçivəsində tələbə və müəllimlər üçün əvvəlcədən həftəlik fəaliyyət planı hazırlanıb. Proqrama uyğun olaraq təcrübələr Təcili tibbi yardım, Uşaq xəstəlikləri, Daxili xəstəliklər, Ginekologiya, Cərrahiyyə, Uşaq və yetkin psixiatriyası şöbələrində təşkil olunub. Hər şöbə üzrə təcrübə iki gün davam edib.

Təcrübə müddətində tələbələr müxtəlif şöbələrdə xəstələrin müayinəsi, tibbi prosedurların icrası, təcili tibbi yardımın təşkili və cərrahiyyə sahəsində aparılan praktik fəaliyyətlərdə yaxından iştirak edərək peşə bacarıqlarını inkişaf etdiriblər.

NDU-nun müəllim heyəti isə Farabi Xəstəxanasının baş həkimi, Qaradəniz Texniki Universiteti Tibb fakültəsinin dekanı, eləcə də xəstəxananın Genetika, Sitogenetika, Biokimya və Laboratoriya şöbələrinin fəaliyyəti ilə yaxından tanış olub.

Görüş zamanı bildirilib ki, Farabi Xəstəxanasının laboratoriyası Türkiyədə ilk, Avropada isə üçüncü sırada yer alan qapalı sistem laboratoriya texnologiyasından istifadə edir.






Təcrübə proqramından sonra tələbə və müəllim heyəti Trabzon şəhər mərkəzində yerləşən Atatürk Köşkünü ziyarət ediblər.

Tələbə və müəllim heyəti onlar üçün yaradılmış yüksək səviyyəli təcrübə imkanlarına görə Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayevə dərin minnətdarlıqlarını ifadə ediblər.


# Psixologiya ixtisası üzrə tələbələr Ankara Universitetində klinik staj keçiblər


Naxçıvan Dövlət Universitetinin "Psixologiya" ixtisası üzrə tələbələri Türkiyənin Ankara Universiteti Tibb fakültəsində klinik staj keçiblər.

III kurs tələbələri Psixiatriya şöbəsində, II kurs tələbələri isə Nevrologiya şöbəsində praktik fəaliyyətlərdə iştirak ediblər.

Rotasiya prinsipi əsasında təşkil olunan staj müddətində tələbələr mütəxəssis həkimlərin nəzarəti altında şöbələrin iş prinsipləri, pasiyentlərin klinik qiymətləndirilməsi, müşahidə prosesləri, pasiyentlərlə peşəkar ünsiyyət və multidissiplinar komanda işinin xüsusiyyətləri ilə yaxından tanış olublar.

Beynəlxalq klinik mühitdə keçirilən bu stajlar tələbələrin nəzəri biliklərini praktik bacarıqlarla möhkəmləndirməsinə, peşəkar səriştələrinin inkişafına və gələcək fəaliyyətləri üçün mühüm klinik təcrübə qazanmalarına əhəmiyyətli töhfə verir.



# Naxçıvan Dövlət Universitetinin tələbələri Qazi Universitetində klinik staj keçiblər

Tədris proqramına uyğun olaraq Naxçıvan Dövlət Universitetinin Tibb və Hərbi tibb ixtisasları üzrə tələbələri Türkiyənin Qazi Universitetində klinik stajlarını uğurla davam etdiriblər.




Staj proqramı çərçivəsində tələbələr Təcili tibbi yardım, Pediatriya, Daxili xəstəliklər, Ginekologiya və Ümumi cərrahiyyə şöbələrində praktiki fəaliyyətlərdə iştirak ediblər. Tələbələr müxtəlif klinik halların diaqnostikası və müalicə proseslərini müşahidə edib, həkim vizitlərində iştirak edib, təcili tibbi yardımın təşkili, pediatrik xəstələrə yanaşma, daxili xəstəliklərin idarə olunması, ginekoloji müayinələr və cərrahi müdaxilələrin mərhələləri ilə yaxından tanış olublar.

Beynəlxalq klinik mühitdə keçirilən bu stajlar tələbələrin nəzəri biliklərini praktik bacarıqlarla möhkəmləndirməsinə, müasir tibbi yanaşmaları mənimsəməsinə və gələcək peşə fəaliyyətləri üçün dəyərli beynəlxalq təcrübə qazanmasına mühüm töhfə verib.




# NDU-nun tələbə və müəllim heyəti Dokuz Eylül Universitetində klinik təcrübəyə başlayıb

Naxçıvan Dövlət Universitetinin professor-müəllim və tələbə heyəti Türkiyənin nüfuzlu ali təhsil müəssisələrindən biri olan Dokuz Eylül Universitetində klinik staja başlayıb.

Staj proqramı çərçivəsində ilk gün Dokuz Eylül Universitetinin rəhbərliyi və Tibb fakültəsinin nümayəndələri ilə görüş keçirilib. Görüşdə Tibb fakültəsinin dekanı professor doktor Sərdar Bayrak, fakültənin Xarici əlaqələr üzrə koordinatoru, mikrobiologiya professoru Arzu Sayıner, eləcə də Naxçıvan Dövlət Universitetinin professor-müəllim və tələbə heyəti iştirak edib.

Daha sonra Dokuz Eylül Universitetinin rektor köməkçisi professor doktor Mehmet Birhan Yılmaz, Tibb fakültəsinin dekanı, professor doktor Sərdar Bayrak, fakültə əməkdaşları və Naxçıvan Dövlət Universitetinin nümayəndələrinin iştirakı ilə internlər üçün oriyentasiya proqramı təşkil olunub.



Tədbirdə çıxış edən professor doktor Mehmet Birhan Yılmaz və dosent Bəhruz Məmmədov iki universitet arasında qurulan əməkdaşlıq əlaqələrinin əhəmiyyətindən bəhs ediblər. Bildirilib ki, həyata keçirilən birgə fəaliyyətlər tələbə və müəllimlərin beynəlxalq təcrübə qazanmasına, peşəkar bilik və bacarıqlarının inkişafına mühüm imkan yaradır. Çıxışlarda bu əməkdaşlığın reallaşmasına göstərdikləri dəstəyə görə hər iki universitetin rəhbərliyinə təşəkkür ifadə olunub.

Oriyentasiya proqramından sonra Naxçıvan Dövlət Universitetinin professor-müəllim və tələbə heyəti müəyyən edilmiş qrafik əsasında Daxili xəstəliklər, Dəri-zöhrəvi xəstəliklər, Kardiologiya, Təcili tibbi yardım, Cərrahiyyə, Göz xəstəlikləri, Uşaq xəstəlikləri və Nefrologiya şöbələrində klinik staja başlayıb.

# NDU nəzdində Beynəlxalq Kembric Məktəbində beynəlxalq olimpiada qalibləri mükafatlandırılıb

Naxçıvan Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən Beynəlxalq Kembric Məktəbində beynəlxalq olimpiadalarda yüksək nəticələr əldə etmiş şagirdlərin mükafatlandırma mərasimi keçirilib. Tədbiri giriş sözü ilə açan məktəbin direktoru Bayram Əliyev son illərdə təhsil sahəsinə göstərilən diqqət və qayğının,



yaradılan müasir təhsil mühitinin əldə olunan uğurlarda mühüm rol oynadığını vurğulayıb. Direktor qeyd edib ki, şagirdlərin beynəlxalq bilik yarışlarında qazandıqları nailiyyətlər sistemli tədrisin, müəllim əməyinin və məqsədyönlü fəaliyyətin məntiqi nəticəsidir. Bildirilib ki, məktəbin şagirdləri "Hippo", "Eynşteyn" və "Spirit of Math" beynəlxalq olimpiadalarında ümumilikdə 26 medala layiq görülərək mühüm uğura imza atıblar. Daha sonra Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev çıxış edərək qazanılan nailiyyətləri yüksək qiymətləndirib. Rektor bildirib ki, ölkədə təhsilin inkişafına göstərilən dövlət qayğısı, həyata keçirilən uğurlu təhsil siyasəti və gənclərin hərtərəfli inkişafına yönəlmiş layihələr Azərbaycan təhsilinin beynəlxalq arenadakı uğurlarının əsasını təşkil edir. Vurğulayıb ki, müasir təhsil infrastrukturunun yaradılması, innovativ tədris metodlarının tətbiqi və beynəlxalq təcrübənin öyrənilməsi şagirdlərin bilik və bacarıqlarının inkişafına geniş imkanlar yaradır. Elbrus İsayev qeyd edib ki, beynəlxalq olimpiadalarda əldə olunan uğurlar müəllimlərin peşəkarlığının, onların fədakar əməyinin, valideyn dəstəyinin və şagirdlərin məqsədyönlü fəaliyyətinin nəticəsidir. Rektor Beynəlxalq Kembric Məktəbinin qısa müddət ərzində qazandığı nailiyyətlərin təhsil müəssisəsində formalaşmış sağlam akademik mühitin göstəricisi olduğunu bildirib. Rektor məktəbin gələcək inkişaf perspektivlərindən, beynəlxalq əməkdaşlıq əlaqələrinin genişləndirilməsindən və şagirdlərin qlobal bilik və bacarıqlara yiyələnməsi istiqamətində həyata keçiriləcək layihələr dən bəhs edib. Tədbirdə olimpiada qaliblərinə medal və sertifikatlar təqdim olunub. Eyni zamanda Ümum-



milli Lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr olunmuş futbol turnirində iştirak edən, eləcə də məktəbdə keçirilən "Mədəniyyət Festivalı"nda fərqlənən şagirdlərə sertifikatlar təqdim olunub. Həmçinin "Qərbi Azərbaycana qayıdış" III festival-konqresi çərçivəsində təşkil olunmuş rəsm sər-



rəfli inkişafına göstərilən diqqətə və övladlarının qazandıqları uğurlara görə minnətdarlıqlarını bildiriblər. Qeyd edək ki, Naxçıvan Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən Beynəlxalq Kembric Məktəbi müasir təhsil standartlarını beynəlxalq təcrübə ilə birləşdirərək şagirdlərin hərtərəfli inkişafına xidmət edir. Məktəbdə akademik biliklərlə yanaşı, xarici dil hazırlığına, yaradıcılıq potensialının inkişafına, elmi-tədqiqat bacarıqlarının formalaşdırılmasına və milli dəyərlərin aşılanmasına xüsusi önəm verilir. Şagirdlərin beynəlxalq olimpiada və müsabiqələrdə qazandıqları uğurlar da bu məqsədyönlü fəaliyyətin mühüm nəticələrindən biridir.

# *NDU nəzdində Gimnaziyaya qəbul imtahanı keçirilib*

Naxçıvan Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən Gimnaziyaya 2026-2027-ci tədris ili üçün qəbul imtahanı keçirilib.

İmtahan universitetin Beynəlxalq münasibətlər və hüquq fakültəsində təşkil olunub. Qəbul prosesində 5-ci sinfi bitirən şagirdlər iştirak ediblər. Bu il ilk dəfə olaraq sənəd qəbulu elektron formada həyata keçirilib ki, bu da müraciət prosesinin daha operativ və şəffaf aparılmasına imkan yaradıb.

Ümumilikdə 526 şagird qeydiyyatdan keçib. Onlardan 521-i imtahanda iştirak edib.

İmtahanda şagirdlərə ingilis dili fənnindən 35, riyaziyyat fənnindən 25, Azərbaycan dili fənnindən 20, tarix fənnindən 10 və təbiət fənnindən 10 olmaqla ümumilikdə 100 sual təqdim edilib. İştirakçılara sualları cavablandırmaq üçün 3 saat vaxt verilib.

Qeyd edək ki, imtahanın nəticələrinə əsasən ən



yüksək bal toplayan 30 qız və 30 oğlan olmaqla ümumilikdə 60 şagird Naxçıvan Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən Gimnaziyaya qəbul olunacaq.



Qəbul olunan şagirdlər yeni tədris ilindən etibarən gimnaziyada təhsillərini davam etdirəcəklər.

# NDU-da Silahlı Qüvvələr Gününə həsr olunmuş tədbir baş tutub və mini stadion istifadəyə verilib

Naxçıvan Dövlət Universitetində "26 Iyun – Silahlı Qüvvələr Günü"nə həsr olunmuş tədbir keçirilib, universitet ərazisindəki mini stadion istifadəyə verilib.



Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və Vətən uğrunda canlarından keçmiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, ardınca Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.



Tədbiri giriş sözü ilə açan Sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektor Nicat Yaqubov iştirakçıları salamlayaraq bildirib ki, universitetdə bütün sahələrdə olduğu kimi, idmanın inkişafı istiqamətində də məqsədyönlü strategiyalar hazırlanıb və icrasına başlanılıb. Prorektor qeyd edib ki, idman sahəsində maddi-texniki baza yenilənir, o cümlədən yaradılan müasir idman infrastrukturu tələbə-idmançıların istifadəsinə verilir.

"Çağırışaqədərki hazırlıq və mülki müdafiə" kafedrasının müdiri, dosent Valeh Əlixanov çıxışında Azərbaycan Silahlı Qüvvələrinin yaranma tarixindən və keçdiyi şərəfli inkişaf yolundan bəhs edib.

Tədbirin bədii hissəsində tələbələr tərəfindən vətənpərvərlik ruhunu əks etdirən idman nömrələri nümayiş etdirilib.

Sonda Pedaqoji fakültənin komandası ilə universitetin yığma komandası arasında mini futbol oyunu keçirilib. Gərgin idman mübarizəsi şəraitində keçən qarşılaşma Pedaqoji fakültənin komandasının 4:2 hesablı qələbəsi ilə başa çatıb.

***Badəm Əliyeva***
***Media və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı***

# NDU-da “Code for Future” layihəsinin final tədbiri keçirilib

Naxçıvan Dövlət Universitetində Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi və “Alqoritmika” Beynəlxalq Proqramlaşdırma və Riyaziyyat Məktəbinin birgə həyata keçirdiyi “Code for Future” layihəsinin final tədbiri keçirilib.

Tədbirdə universitet rəhbərliyi, layihə müəllimləri, “Alqoritmika” şirkətinin nümayəndələri və layihəni uğurla başa vuran tələbələr iştirak ediblər.

NDU-nun Fizika-riyaziyyat fakültəsinin dekanı Vüqar Salmanov çıxış edərək layihənin tələbələrin informasiya texnologiyaları sahəsində bilik və bacarıqlarının inkişafında mühüm rol oynadığını bildirib. Qeyd olunub ki, “Code for Future” layihəsi gənclərin müasir əmək bazarının tələblərinə uyğun praktiki bacarıqlar əldə etməsinə, proqramlaşdırma və rəqəmsal texnologiyalar sahəsində ilkin peşəkar addımlar atmasına dəstək verir.





“Alqoritmika” şirkətinin nümayəndəsi Mahirə Məmmədova isə layihə çərçivəsində 50 tələbənin proqramlaşdırma sahəsində nəzəri və praktiki biliklər əldə etdiyini qeyd edib. Nəzərə çatdırılıb ki, tədris müddətində tələbələrin davamiyyəti və nəticələrində müsbət dinamika müşahidə olunub, onların inkişafına və fəallığının artırılmasına yönəlmiş müxtəlif dərsdənkənar tədbirlər təşkil edilib.

Daha sonra çıxış edənlər layihənin gənclərin rəqəmsal bacarıqlarının artırılması və gələcək karyera imkanlarının genişləndirilməsi baxımından əhəmiyyəti vurğulanıb.

Tədbirin davamında layihəni uğurla başa vuran tələbələrə sertifikatlar təqdim olunub.

Sonda “Code for Future” layihəsinin həyata keçirilməsində əməyi olan universitet rəhbərliyinə, müəllimlərə, “Alqoritmika” komandasına və layihə iştirakçılarına təşəkkür edilib. Qeyd olunub ki, layihə gənclərin rəqəmsal gələcəyə hazırlanması və ölkənin insan kapitalının inkişafı istiqamətində mühüm təşəbbüslərdən biridir.



*Badəm Əliyeva*
*Media və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı*

# NDU-nun akademik heyəti və tələbələri Xaraba Gilan arxeoloji ekspedisiyasında iştirak ediblər

Naxçıvan Dövlət Universitetinin Tarix-filologiya fakültəsinin akademik heyəti və tələbələri Xaraba Gilan arxeoloji abidəsində aparılan qazıntı işlərində iştirak ediblər.

Səfər tələbələrin nəzəri biliklərinin praktik mühitdə möhkəmləndirilməsi, arxeoloji tədqiqat prosesinin yerində öyrənilməsi və elmi araşdırmalara cəlb olunması məqsədi daşıyıb.

Səfər çərçivəsində tələbələr qazıntı sahəsində aparılan işlərlə yaxından tanış olub, arxeoloji prosesin mərhələlərini müşahidə ediblər və sahə tədqiqatı üzrə praktiki biliklər əldə ediblər.

Xaraba Gilan arxeoloji ekspedisiyasının rəhbəri, tarix üzrə fəlsəfə doktoru, dosent Bəhlul İbrahimli aparılan qazıntılar, əldə olunan elmi nəticələr və abidənin tarixi əhəmiyyəti barədə məlumat verib.

Naxçıvan Dövlət Universitetinin Tarix-filologiya fakültəsinin dekanı, filologiya üzrə fəlsəfə doktoru Arif Ağalarov isə tələbələrin bu cür ekspedisiyalarda iştirakının onların peşə hazırlığının gücləndirilməsində və elmi dünyagörüşlərinin formalaşmasında mühüm rol oynadığını vurğulayıb.

Qeyd edək ki, Xaraba Gilan Cənubi Qafqazın az öyrənilmiş, lakin zəngin tarixi-mədəni irsə malik mühüm arxeoloji abidələrindən biridir və burada aparılan tədqiqatlar regionun qədim tarixinin öyrənilməsində xüsusi əhəmiyyət daşıyır.









# *Təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsi çöl tədqiqatında*

26 iyun 2026-cı il tarixində Təbiətşünaslıq və Kənd Təsərrüfatı fakültəsinin “Biologiya” kafedrasının “Nadir flora” tədqiqat qrupu tərəfindən Şahbuz rayonu Keçili kəndi ərazisində – Çınqıllı bulaq ətrafında növbəti çöl tədqiqatı həyata keçirilib.

Tədqiqat zamanı ərazinin flora müxtəlifliyi öyrənilib, bitki nümunələri toplanaraq herbari nümunələri hazırlanıb, elmi araşdırmalar üçün müvafiq qeydlər aparılıb.

Tədqiqat prosesində “Biologiya” ixtisası üzrə bakalavr və magistr tələbələri də iştirak edib, çöl tədqiqatlarının aparılması, bitki nümunələrinin toplanması və herbari hazırlanması üzrə praktiki bilik və bacarıqlar əldə ediblər.

Çöl tədqiqatları regionun floristik zənginliyinin öyrənilməsi və biomüxtəlifliyin qorunması istiqamətində mühüm əhəmiyyət kəsb edir.





*Badəm Əliyeva*
*Media və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı*

# KİTAB TƏQDİMATLARI

## NDU-da “Nazende sevgilim yadıma düştün” adlı kitabın təqdimatı keçirilib






Naxçıvan Dövlət Universitetinin Elmi Kitabxanasında “Musiqinin tarixi və nəzəriyyəsi” kafedrasının dosenti, sənətşünaslıq üzrə fəlsəfə doktoru Günay Məmmədova və Tüğşad Ata Türkmenin həmmüəllifi olduqları “Nazende sevgilim yadıma düştün” adlı kitabın təqdimatı keçirilib.

Tədbiri giriş sözü ilə Sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektor, filologiya üzrə fəlsəfə doktoru, dosent Nicat Yaqubov açaraq nəşrin Azərbaycan və türk musiqi-mədəni əlaqələrinin öyrənilməsi baxımından əhəmiyyətini vurğulayıb.

Daha sonra “Musiqinin tarixi və nəzəriyyəsi” kafedrasının müdiri, sənətşünaslıq elmləri doktoru, dosent, Azərbaycan Respublikasının Əməkdar müəllimi İnara Məhərrəmova, “Xalq çalğı alətləri” kafedrasının dosenti, pedaqogika üzrə fəlsəfə doktoru İsmayıl Mürsəlov, “Orkestr alətləri və dirijorluq” kafedrasının müdiri, Azərbaycan Respublikasının Əməkdar artisti, dosent Mübariz Əsgərov çıxış edərək kitabın elmi və mədəni əhəmiyyətindən, musiqi irsinin qorunması və gələcək nəsillərə çatdırılması baxımından dəyərli mənbə olduğundan danışıblar.

Çıxışlarda nəşrin musiqişünaslıq sahəsində aparılan tədqiqatlara töhfə verdiyi, həmçinin Azərbaycan və Türkiyə arasında ortaq musiqi dəyərlərinin təbliğinə xidmət etdiyi qeyd olunub.

Sonda müəllif Günay Məmmədova göstərilən diqqət və qayğıya görə universitet rəhbərliyinə və tədbir iştirakçılarına minnətdarlığını bildirib. Tədbir xatirə fotosunun çəkilməsi ilə yekunlaşıb.

## “Musiqi aləmi” dərs vəsaitinin təqdimatı keçirilib

Naxçıvan Dövlət Universitetində “Fortepiano” kafedrasının baş müəllimi Fəridə Ağayevanın müəllifi olduğu “Musiqi aləmi” adlı dərs vəsaitinin təqdimat mərasimi keçirilib.

Tədbirdə çıxış edən Elmi fəaliyyətin təşkili və təhlili şöbəsinin müdiri, biologiya elmləri doktoru, dosent Ənvər İbrahimov müəllifi təbrik edib, musiqi təhsilinin inkişafında bu kimi nəşrlərin əhəmiyyətindən danışıb. Qeyd edib ki, musiqi sahəsində hazırlanan





dərs vəsaitləri gənc nəslin estetik zövqünün formalaşmasında, milli musiqi irsinin öyrənilməsində və tədris prosesinin zənginləşdirilməsində mühüm rol oynayır.

Çıxışlarda dərs vəsaitinin məzmunu, musiqinin tarixi, ilk musiqi alətlərinin yaranması və inkişaf mərhələləri haqqında məlumat verilib. Bildirilib ki, musiqi bəşər tarixinin ən qədim sənət növlərindən biri olmaqla insanların duyğu və düşüncələrinin ifadəsində mühüm yer tutur və mənəvi dəyərlərin formalaşmasına mühüm təsir göstərir.

Təqdimat zamanı slaydlar vasitəsilə “Musiqi aləmi” dərs vəsaitinin məzmunu, musiqi təhsilinə verəcəyi töhfələr və gələcək nəsillərin musiqi biliklərinin formalaşmasındakı rolu barədə ətraflı məlumat təqdim olunub.

Mərasimin bədii hissəsi Naxçıvan şəhər 2 nömrəli İncəsənət Məktəbinin “Xarı bülbül” vokal qrupunun ifasında səslənən “Qüdrətli rəhbər” əsəri ilə başlayıb. Ardınca müəllif Fəridə Ağayevanın ifasında “Qələbə bizimlədir” musiqi nömrəsi təqdim olunub. Daha sonra “Qayıt Şuşaya”, “Cırtdan”, “Gözlərim səni axtarır”, “Novruz”, “Naxışlar” və “Durnalar” musiqi nömrələri, eləcə də “Vətən” və “Payız valsı” əsərləri səsləndirilib.

Bədii hissə Aliyə Seyidli və Fəridə Ağayevanın birgə təqdimatında Devid Xikenin “Incantation (Sehrli cazibə)” əsərinin ifası ilə yekunlaşıb.




Sonda müəllif Fəridə Ağayeva göstərilən diqqət və qayğıya görə minnətdarlığını bildirib, dərs vəsaitinin musiqi təhsilinin inkişafına töhfə verəcəyinə əminliyini ifadə edib.

## *“Osmanlı qaynaqlarında Naxçıvan toponimiyası və etnoqrafik izlər” adlı monoqrafiyanın təqdimatı*

Naxçıvan Dövlət Universitetinin Elmi Kitabxanasında “Azərbaycan dilçiliyi” kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru Arzu Abbasovanın müəllifi olduğu “Osmanlı qaynaqlarında Naxçıvan toponimiyası və etnoqrafik izlər” adlı monoqrafiyanın təqdimatı baş tutub.






Tədbiri giriş sözü ilə Elmi fəaliyyətin təşkili və təhlili şöbəsinin müdiri, biologiya üzrə elmlər doktoru, dosent Ənvər İbrahimov açaraq nəşrin Naxçıvanın tarixi toponimiyasının və etnoqrafik irsinin araşdırılması baxımından əhəmiyyətini vurğulayıb.

Daha sonra Tarix-filologiya fakültəsinin dekanı, filologiya üzrə fəlsəfə doktoru, dosent Arif Ağalarov, “Azərbaycan dilçiliyi” kafedrasının müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Elburus Vəliyev, həmin kafedranın dosentləri, filologiya üzrə fəlsəfə doktorları Qənirə Əsgərova və Arifə Zeynalova çıxış edərək monoqrafiyanın elmi dəyəri, Osmanlı mənbələrində Naxçıvanın yer adlarının tədqiqi və bölgənin etnoqrafik xüsusiyyətlərinin araşdırılması baxımından əhəmiyyətindən danışıblar.

Sonda müəllif Arzu Abbasova göstərilən diqqət və qayğıya görə universitet rəhbərliyinə minnətdarlığını bildirib. Tədbir xatirə fotosunun çəkilməsi ilə yekunlaşıb.

*Badəm Əliyeva*
*Media və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı*

# NDU-da Milli Mətbuat və Jurnalistika Günü qeyd olunub

Naxçıvan Dövlət Universitetində Milli Mətbuat və Jurnalistika Günü münasibətilə tədbir keçirilib. Müxtəlif media qurumlarının və ali təhsil ocağının media nümayəndələrinin, həmçinin "Jurnalistika və rəqəmsal media" kafedrasının əməkdaşlarının iştirakı ilə keçirilən tədbirdə jurnalistlər mükafatlandırılıb, NDU TV-nin yenidən qurulmuş studiyası istifadəyə verilib.



Tədbirdə çıxış edən Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev



bildirib ki, Azərbaycanda media sahəsi dövlətin daim diqqət mərkəzindədir. Prezident İlham Əliyevin çıxışlarında milli mətbuatın inkişafına, peşəkar jurnalistikanın gücləndirilməsinə və informasiya təhlükəsizliyinin təmin olunmasına xüsusi önəm verildiyini vurğulayan rektor qeyd edib ki, müasir dövrdə cəmiyyətin düzgün və operativ məlumatlandırılmasında medianın üzərinə böyük məsuliyyət düşür.

Rektor universitetdə jurnalistika sahəsində peşəkar kadr hazırlığının həyata keçirildiyini, rəqəmsal jurnalistikanın inkişafı istiqamətində yeni layihələrin icra olunduğunu, bu sahədə Çin universitetləri ilə ikili diplom proqramlarının planlaşdırıldığını diqqətə çatdırıb.

Elbrus İsayev qeyd edib ki, universitetin Media Mərkəzinin tərkibində fəaliyyət göstərən NDU TV, "Nuhçıxan" radiosu və "Yeni fikir" qəzeti universitetin fəaliyyətinin operativ işıqlandırılmasında mühüm rol oynayır. Rektor son illərdə Media Mərkəzinin və NDU Nəşriyyatının maddi-texniki bazasının yeniləndiyini vurğulayıb.



Çıxış edən media nümayəndələri – Anar Tağıyev, Turab Hacızadə, Nəriman Nəcəfov və digər qonaqlar universitetdə media sahəsinə göstərilən diqqətə görə minnətdarlıqlarını ifadə edib, Naxçıvan Dövlət Universitetində formalaşan güclü kadr potensialının region mediasının inkişafına da mühüm töhfə verdiyini, ali təhsil ocağı ilə media qurumları arasında əməkdaşlığın uğurlu nəticələr verdiyini vurğulayıblar.

Daha sonra media nümayəndələrinə təşəkkür plaketləri və mükafatlar təqdim olunub.

Ardınca NDU TV-nin yenidən qurulmuş studiyası istifadəyə verilib. NDU Media və ictimaiyyətlə əlaqələr şöbəsinin fəaliyyətini əks etdirən videoçarx izlənilib.

Sonda xatirə fotosu çəkdirilib.

# Tanınmış media ekspertlərinin "YENİ FİKİR" qəzeti ilə bağlı fikirləri

## *"Yeni fikir" qəzetinin kollektivinə:*

Hörmətli "Yeni fikir" qəzetinin redaksiya heyəti, Sizi 22 İyul - Milli Mətbuat Günü münasibətilə səmimi qəlbdən təbrik edir, yaradıcı fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram!

"Yeni fikir" qəzeti Naxçıvan Dövlət Universitetində zəngin ənənələrə malik "Fikir" qəzetinin davamçısı kimi universitet həyatının, elmi, mədəni və ictimai fəaliyyətin salnaməsini yaradan nüfuzlu mətbuat orqanıdır. Həsən bəy Zərdabinin "Əkinçi" qəzeti ilə təməli qoyulan milli mətbuatımızın keçdiyi şərəfli yolda digər mətbu orqanlar kimi, Naxçıvan Dövlət Universitetinin mətbu orqanlarının da öz payı vardır. 20 il əvvəl işıq üzü görmüş "Fikir" qəzetinin tarixi varisi və yeni mərhələdəki davamı kimi 2011-ci il aprelin 1-dən fəaliyyətə başlayan "Yeni fikir" qəzeti qısa müddətdə universitet mühitinin elmi-maarifçi baxışlarını ədəbi-publisist düşüncə ilə zənginləşdirən mühüm mətbu tribunaya çevrilib.

"Yeni fikir" yalnız zəruri məlumatları və bədii-publisistik yazıları oxuculara çatdıran bir qəzet deyil, həm də milli jurnalistikamız üçün böyük bir təcrübə məktəbidir. Gələcək jurnalistlərin, tələbələrin və gənc tədqiqatçıların ilk qələm təcrübələrini qazandıqları, publisistika sənətkarlığını, jurnalistikanın incəliklərini öyrəndikləri bu mühit həqiqətən də təqdirəlayiqdir. Bu baxımdan qəzet universitetin elmi-maarifçi mühitinin



zənginləşdirilməsində və gənc jurnalistlərin yetişdirilməsində mühüm missiya daşıyır. Qəzet təkcə operativ informasiya mənbəyi olmaqla kifayətlənmir, həm də bədii-publisistik yazılara geniş yer ayırmaqla söz sənətinin və jurnalistikanın inkişafına öz töhfəsini verir.

Əminəm ki, "Yeni fikir" bundan sonra da milli mətbuat ənənələrini layiqincə davam etdirəcək, cəmiyyətin maarifləndirilməsinə, sağlam ictimai fikrin formalaşmasına və yeni nəsil jurnalistlərin yetişməsinə dəyərli töhfələr verməkdə davam edəcək.

Sizə milli mətbuatımızın zəngin ənənələrini yaşatmaq, gənc jurnalist kadrların yetişdirilməsi və universitet mühitində azad, obyektiv, peşəkar sözün nümayiş etdirilməsi kimi şərəfli missiyanızda tükənməz həvəs və böyük müvəffəqiyyətlər arzulayıram!

**Milli Mətbuat Gününüz mübarək olsun!**

***Vüqar Rəhimzadə***
***Azərbaycan Respublikası***
***Milli Məclisinin deputatı,***
***"İki sahil" qəzetinin baş redaktoru***

***

## *Qəzet məktəbi peşəkar jurnalist yetişdirməkdə əvəzsizdir*

Bütün mətbuat işçilərini Azərbaycan Milli Mətbuatının 151 illiyi münasibətilə ürəkdən təbrik edirəm. Azərbaycan mətbuatı çox zəngin və şərəfli inkişaf yolu keçib. Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasında, Sovet dövründə ana dilimizin saflığının qorunmasında jurnalistlərimizin və mətbuat işçilərimizin rolu danılmazdır.

Müstəqillik dövründə isə Azərbaycan mətbuatı yeni inkişaf mərhələsinə qədəm qoydu. Ulu Öndər Heydər Əliyevin Fərmanı ilə senzura ləğv edildi. O, mətbuata hər zaman böyük diqqət və qayğı ilə yanaşırdı.

Professor qeyd edib ki, bu ənənə bu gün də Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Onun sözlərinə görə, media haqqında qanunun qəbul edilməsi, beynəlxalq media forumlarının keçirilməsi və media sahəsində yeni institutların fəaliyyəti ölkədə mətbuata göstərilən diqqətin bariz nümunəsidir. İnformasiya texnologiyalarının sürətli inkişafı şəraitində bu addımlar medianın daha çevik və peşəkar fəaliyyət göstərməsi üçün mühüm əhəmiyyət daşıyır: "Ömrümüzü həsr etdiyimiz çap qəzetləri təəssüf ki, informasiya texnologiyalarının inkişafı ilə əvvəlki mövqeyini qismən itirməkdədir. Lakin buna baxmayaraq, peşəkar jurnalistlərin yetişməsində qəzet məktəbinin rolu əvəzsizdir. Dilimizin saflığının qorunması, maarifçilik missiyasının həyata keçirilməsi və milli dəyərlərimizin təbliği istiqamətində mətbuatımız hər zaman mühüm rol oynayıb.



Fürsətdən istifadə edərək "Yeni fikir" qəzetinin kollektivini də Milli Mətbuatın 151 illiyi münasibətilə ürəkdən təbrik edir, qəzetə gələcək fəaliyyətində uğurlar arzulayıram. İnanıram ki, "Yeni fikir" bundan sonra da mətbuatımızın gözəl ənənələrini yaşadacaq, maarifçilik missiyasını davam etdirəcək, ana dilimizin saflığının qorunmasına və milli dəyərlərimizin təbliğinə öz töhfəsini verəcək.

Mətbuatın əsas missiyası cəmiyyəti məlumatlandırmaqla yanaşı, maarifləndirmək, milli-mənəvi dəyərləri qorumaq və yeni nəslin formalaşmasına töhfə verməkdir. Bu missiyanı uğurla yerinə yetirən mətbu orqanlardan biri də Naxçıvan Dövlət Universitetinin "Yeni fikir" qəzetidir. "Yeni fikir" artıq uzun illərdir ki, universitetin elmi, tədris və mədəni həyatının etibarlı salnaməsi kimi fəaliyyət göstərir.

Qəzet yalnız universitet xəbərlərini işıqlandırmaqla kifayətlənmir, həm də müəllim və tələbələrin elmi-publisistik yaradıcılığına geniş yer ayıraraq gənclərdə sözə, qələmə və jurnalistikaya marağın formalaşmasına mühüm töhfə verir. Bu gün "Yeni fFikir" universitetin nəşr orqanının uğurlu nümunələrindən biri kimi öz maarifçilik missiyasını layiqincə davam etdirir.

Hər nömrəsində yeni ideyaları, sağlam düşüncəni və milli-mənəvi dəyərləri təbliğ edən qəzet həm universitet ictimaiyyətinin, həm də geniş oxucu auditoriyasının rəğbətini qazanıb. İnanıram ki, bu qəzet gələcəkdə də maarifçilik ənənələrini uğurla davam etdirəcək.

***Rəşad Məcid***
***Azərbaycan Mətbuat***
***Şurasının sədri,***
***"525-ci qəzet"in baş redaktoru***

***

## *"Yeni fikir" maarifçilik missiyasını uğurla davam etdirir*

Mətbuat uzun illərdir insanların informasiya əldə etməsində, ölkədə və dünyada baş verən hadisələri izləməsində mühüm rol oynayan əsas kütləvi informasiya vasitələrindən biridir. Televiziya, radio və internetin sürətli inkişafına baxmayaraq, qəzet bu gün də öz aktuallığını qoruyur. Çünki qəzet xəbərləri daha ətraflı, təhlilli və sistemli şəkildə oxucuya təqdim edir. Hər bir qəzet müəyyən redaksiya prinsipləri əsasında hazırlanır və cəmiyyətin maarifləndirilməsinə xidmət edir.

Naxçıvan Dövlət Universitetinin orqanı olan "Yeni fikir" qəzeti də öz səhifələrində elm, təhsil, mədəniyyət, idman və sosial həyatla bağlı aktual mövzuları işıqlandırır. Bununla yanaşı, müsahibələr, analitik yazılar və tələbə jurnalistlərin hazırladıqları materiallar oxuculara hadisələri daha dərindən anlamaq imkanı yaradır. Bu xüsusiyyətlər "Yeni fikir" qəzetini təkcə xəbər mənbəyi deyil, həm də maarifləndirici



ictimaiyyətə çatdırır, müxtəlif sahələr üzrə mütəxəssislərin fikirlərinə yer verir. Bu isə oxucuların dünyagörüşünün formalaşmasına və informasiya mədəniyyətinin inkişafına mühüm töhfə verir.

Apardığımız monitorinq və müşahidələr də göstərir ki, "Yeni fikir" qəzeti universitet həyatının işıqlandırılması ilə yanaşı, cəmiyyətin maarifləndirilməsi istiqamətində də mühüm fəaliyyət göstərir. Universitetdə media nümayəndələri üçün keçirilən brifinqlər, müxtəlif elmi, mədəni və ictimai tədbirlər, beynəlxalq əlaqələrin inkişafı ilə bağlı materiallar müntəzəm olaraq oxuculara təqdim edilir.

***Ardı 13-cü səhifədə***

Qəzetdə dərc olunan filologiya üzrə fəlsəfə doktoru, dosent, Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti, baş redaktor Şəhla Şirəliyevanın "Qadının xoşbəxtliyi ailənin, ailənin möhkəmliyi isə cəmiyyətin gələcəyidir", "Jurnalistika" kafedrasının müəllimi Gülay Tahirlinin AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, Naxçıvan Dövlət Universitetinin məsləhətçi-professoru Hacıfəxrəddin Səfərli ilə "Azərbaycan xalqı şəhərsalma və memarlıq sahəsində böyük və güclü ənənələrə malikdir" mövzusunda müsahibəsi, İnara Məhərrəmovanın "Milli musiqimizin keşiyində duran sənətkar", "Beynəlxalq münasibətlər və hüquq" kafedrasının müəllimi Səfiyar Abışovun "Xalqının zəka zirvəsinə ucalan dahi", Jurnalistika ixtisası tələbələri Onur Cəbrayılovun "İsgəndəriyyə kitabxanası – dünyanın bilik mərkəzi" və "Azadlığın sərhəddi", Aysu Şükürovanın "Taxta üzərində düşüncə savaşı", Yusif Əhmədlinin "İllüziyadan o yana" kimi yazıları milli-mənəvi dəyərlərin təbliğinə, vətənpərvərlik hissinin gücləndirilməsinə və gənclərin dünyagörüşünün formalaşmasına dəyərli töhfə verir. Tarixi hadisələr, görkəmli şəxsiyyətlər və milli irslə bağlı yazılar gənc nəslin milli kimlik şüurunun inkişafında xüsusi əhəmiyyət daşıyır.

Bütün bunlar deməyə əsas verir ki, "Yeni Fikir" qəzeti universitet mediası olmaqla yanaşı, maarifçilik missiyasını uğurla yerinə yetirən, cəmiyyətə obyektiv informasiya təqdim edən və sağlam ictimai fikrin formalaşmasına xidmət göstərən nüfuzlu mətbu orqanlardan biridir. İnformasiya bolluğunun hökm sürdüyü müasir dövrdə də qəzet öz dəyərini qoruyur, oxucuların etimadını qazanaraq cəmiyyətin inkişafına layiqli töhfələr verməyə davam edir.

Milli Mətbuat Günü münasibətilə "Yeni Fikir" qəzetinin baş redaktorunu və bütün yaradıcı kollektivini səmimi-qəlbdən təbrik edir, məsuliyyətli və şərəfli fəaliyyətlərində yeni uğurlar, möhkəm cansağlığı və tükənməz yaradıcılıq enerjisi arzulayıram.

***Rövşən Hüseynov***
***Naxçıvan Mətbuat Şurasının sədri***

***

## Elm, təhsil və yaradıcılığın tribunasına çevrilən qəzet

Müasir tələblərə görə hazırda Qərb universitetlərində, eləcə də bizim bir çox ali məktəblərdə həftəlik və ya aylıq qəzetlər deyil, informasiya bülleteni tipli jurnalların nəşr edilməsi təcrübəsi yayılıb. Naxçıvan Dövlət Universitetində də uzun müddət "Fikir" qəzetinin bazasında eyniadlı informasiya bülleteni nəşr olundu. Bu jurnal Naxçıvan elmi mühitini, universitet elm və təhsilində gedən prosesləri, bu sahədəki yenilikləri operativliklə əks etdirir. Lakin "Fikir" informasiya bülleteni elmi, ədəbi-bədii düşüncəni publisistik üsulla əks etdirmək imkanı olmadığı üçün həm də geniş mənada ali məktəb auditoriyasının publisistik düşüncəyə olan tələbatını ödəyə bilmədiyi üçün informasiya bülleteni ilə yanaşı, yenidən çoxtirajlı ali məktəb qəzetinin nəşrinə ehtiyac yaranmışdı. Buna görə də 2011-ci ilin aprelindən universitetdə "Yeni fikir" adlı qəzet yenidən tədris həyatına daxil edildi. Mövzusuna görə informasiya bülletenində gedə bilməyən elmi-kütləvi, bədii-publisistik yazılar, geniş müsahibələr yaradıcılıq üçün geniş üfüqlər açan "Yeni fikir" qəzetində



çap olunmağa başladı.

Hazırda universitet mühitindəki elmi-maarifçi baxışların ədəbi-düşüncə ilə zənginləşməsinə xidmət edən qəzet geniş oxucu kütləsi qazanıb. 2013-cü ildən Əməkdar jurnalist, filologiya üzrə fəlsəfə doktoru Şəhla Şirəliyevanın redaktorluğu ilə nəşr olunan qəzet ideya və üslubu, tərtibat rəngarəngliyi, tələbə yaradıcı prizmasını, istedad və təfəkküründü əks etdirməklə, əlamətdar xüsusi buraxılışları ilə universitetin inkişaf dinamikasının ahəngdar ritmini özündə yaşadır. Yəni "Yeni fikir" hazırda ölkənin nüfuzlu ali məktəblərindən biri olan Naxçıvan Dövlət Universitetinin güzgüsü rolunda çıxış edir. Qəzet ayda bir dəfə olmaqla, (əlamətdar hadisələrlə bağlı xüsusi buraxılış olduqda iki dəfə) 20-30 səhifədə 350 sayda tirajla nəşr olunur. Qəzetdə universitet həyatında baş verən yeniliklər, tədbirlər, yeni əməkdaşlıqlar, kitab nəşrləri və s. ilə bağlı xəbərlər, muxtar respublika ziyalılarının araşdırmaları, yazı və müsahibələri, tələbə-müəllim heyətinin fərqli mövzularda, müxtəlif janrlarda yazıları öz əksini tapır.

Beləliklə, "Yeni fikir" qəzeti ötən illər ərzində universitetin zəngin elmi, təhsil və mədəni həyatının etibarlı salnaməsinə çevrilmişdir. Qəzet təkcə universitetdə baş verən hadisələri işıqlandırmaqla kifayətlənmir, həm də müəllim və tələbələrin elmi-publisistik yaradıcılığını təşviq edir, gənclərdə jurnalistikaya maraq yaradır, onların peşəkar bacarıqlarının formalaşmasına mühüm töhfə verir. Burada dərc olunan yazılar universitetin elmi potensialını, yaradıcılıq mühitini və milli- mənəvi dəyərlərə bağlılığını geniş oxucu auditoriyasına çatdırır.

Müasir informasiya cəmiyyətində operativlik əsas amillərdən biri olsa da, dərin təhlil, obyektiv mövqe və maarifçilik missiyası qəzeti həmişə fərqləndirən əsas xüsusiyyətlər olaraq qalır. "Yeni fikir" də məhz bu prinsiplərə sadiq qalaraq universitet mediasında özünəməxsus yerini qoruyur və hər yeni nömrəsi ilə oxucularına yeni fikir, yeni baxış və yeni düşüncə təqdim edir.

Milli Mətbuat Günü münasibətilə "Yeni fikir" qəzetinin yaradıcı kollektivini, baş redaktor, Əməkdar jurnalist, filologiya üzrə fəlsəfə doktoru Şəhla Şirəliyevanı və qəzetin formalaşmasında əməyi olan bütün müəllifləri ürəkdən təbrik edir, onlara möhkəm cansağlığı, tükənməz yaradıcılıq enerjisi, qələmlərinə yeni uğurlar və nəşrin bundan sonra da universitetin elmi-mədəni həyatının etibarlı söz tribunasına çevrilməsini arzulayıram.

***Qulu Məhərrəmli***
***BDU-nun professoru,***
***Əməkdar jurnalist***

***

## *"Yeni fikir" qəzeti: müasir universitet mətbuatının inkişaf istiqamətləri*

Universitet qəzeti təkcə xəbərlərin toplandığı nəşr deyil. O, ali təhsil müəssisəsinin intellektual mühitini, elmi potensialını, dəyərlər sistemini və gələcəyə baxışını əks etdirən bir informasiya platformasıdır. Bu baxımdan Naxçıvan Dövlət Universitetinin "Yeni fikir" qəzeti universitet həyatının müxtəlif istiqamətlərini işıqlandıran, elm, təhsil və ictimai fikri bir araya gətirən nəşr kimi diqqəti cəlb edir. Son buraxılışlar göstərir ki, qəzet artıq yalnız universitet daxilində baş verən hadisələri işıqlandırmaqla kifayətlənmir, həm də elm, mədəniyyət, milli-mənəvi dəyərlər və müasir inkişaf meyilləri arasında əlaqə yaratmağa çalışır.

Qəzetə nəzər saldıqda ilk diqqəti cəlb edən cəhət mövzu müxtəlifliyidir. Səhifələrdə rəqəmsal transformasiya, universitetdə aparılan elmi-tədqiqatlar, tarixi şəxsiyyətlər, memarlıq irsi, musiqi mədəniyyəti, turizm potensialı, dövlətçilik məsələləri və gənclərin elmi fəaliyyəti kimi istiqamətlər paralel şəkildə təqdim olunur. Bu yanaşma "Yeni fikir"i yalnız daxili informasiya bülleteni olmaqdan çıxararaq maarifləndirici və ictimai əhəmiyyət daşıyan nəşrə çevirir.

Qəzetin ən güclü tərəfi elmə və təhsilə verdiyi önəmdir. Universitet alimlərinin tədqiqatları, beynəlxalq konfranslar, elmi seminarlar, müxtəlif layihələr və tələbələrin akademik uğurları müntəzəm şəkildə işıqlandırılır. Elmi mövzuların sadə və anlaşıqlı dillə təqdim olunması isə geniş oxucu auditoriyasının marağını artırır və universitetin elmi mühitini daha yaxından tanımağa imkan yaradır.

"Yeni fikir" həm də universitetin korporativ kommunikasiya vasitəsi kimi mühüm funksiyanı yerinə yetirir. Qəzet professor-müəllim heyəti, tələbələr, məzunlar və ictimaiyyət arasında informasiya əlaqələrinin möhkəmlənməsinə xidmət edir, universitetdə həyata keçirilən layihələri, əməkdaşlıqları və yenilikləri sistemli şəkildə təqdim edir.

Nəşrdə milli-mənəvi dəyərlərin təbliği də xüsusi yer tutur. Tarixi şəxsiyyətlər, memarlıq abidələri, Azərbaycan musiqisi, dövlətçilik tarixi və vətənpərvərlik mövzularına həsr olunan yazılar gənclərdə milli kimlik və vətəndaşlıq şüurunun formalaşmasına töhfə verir. Bununla yanaşı, son nömrələrdə rəqəmsal transformasiya, innovasiya və yeni təhsil yanaşmaları kimi mövzuların daha geniş işıqlandırılması redaksiyanın müasir çağırışlara həssas yanaşdığını göstərir.

Qəzetin mühüm üstünlüklərindən biri də tələbələrin yaradıcılıq imkanlarını dəstəkləməsidir. Tələbələrin esseləri, reportajları, müsahibələri və publisistik yazıları nəşrin məzmununa rəngarənglik qatır, eyni zamanda onların fikir və baxışlarını daha geniş auditoriyaya çatdırmasına şərait yaradır. Bu xüsusiyyət universitet qəzetini yalnız informasiya mənbəyi deyil, həm də gənclərin intellektual və yaradıcı potensialını nümayiş etdirən əhəmiyyətli bir platformaya çevirir.

Bütün bunlarla yanaşı, qəzetin inkişaf etdirilməsi mümkün olan istiqamətləri də mövcuddur. Nəşrdə xəbərlər üstünlük təşkil etsə də, analitik və araşdırma xarakterli yazıların sayı nisbətən azdır. Hadisələrin yalnız təsviri deyil, onların səbəb və nəticələrinin təhlili, müxtəlif baxışların müqayisəsi və ekspert rəylərinin təqdim edilməsi oxucular üçün daha maraqlı və faydalı ola bilər.

Ümumilikdə, "Yeni fikir" qəzeti ənənəvi universitet mətbuatı modelindən tədricən uzaqlaşaraq daha müasir, çevik və çoxşaxəli informasiya platformasına çevrilməkdədir. O, elm, təhsil və milli-mənəvi dəyərləri vahid informasiya məkanında birləşdirə bilir.

Bu gün "Yeni fikir" artıq yalnız universitet həyatının salnaməsi deyil. O, universitetin düşüncə tərzini, elmi axtarışlarını və cəmiyyətlə dialoqunu əks etdirən media platforması kimi formalaşır. Məhz bu xüsusiyyət onu müasir universitet mətbuatının uğurlu nümunələrindən biri kimi dəyərləndirməyə əsas verir.

***Məmməd Babayev***
***"Şərq qapısı" qəzetinin baş redaktorunun müavini***

***

## Mən "Yeni fikir"əm: universitetin dəyişməz, əbədi və azad söz kürsüsüyəm!

Məni yalnız kağız üzərinə hopmuş mürəkkəb zərrəcikləri və ya səhifələri həvəslə vərəqlənən sıradan bir ali məktəb qəzeti zənn etməyin. Mən Naxçıvan Dövlət Universitetinin döyünən ürəyi, onun elmi-maarifçi ruhunun, azad düşüncəsinin və dərin intellektual yaddaşının nəfəsi, qürurlu səsiyəm. Mənim varlığım təsadüfi bir anın məhsulu kimi meydana gəlməyib, köklərim köhnə sovet rejiminin ideoloji təbliğat maşınına xidmət edən çərçivəli, qəzetlərin içindən sıyrılıb çıxan, müstəqillik illərində milli dövlətçilik, soykökə qayıdış və tarixi yaddaşın bərpası kimi müqəddəs ideyalara sarılan alovlu ziyalı mövqeyindən güc alır. Mən zamanın sınağından keçən milli oyanışın, mənəvi dirçəlişin məhsuluyam.

Mənim təməlim, mənim doğuluşum Naxçıvan Dövlət Universitetinin mətbu salnaməsində silinməz iz qoyan "Fikir" qəzetinin işıqlı, şərəfli yolundan başlayır. Vaxtilə Tiflisdə yarımçıq qalmış maarifçilik arzusunu, sönməz məşəlini yaşatmaq üçün "Fikir" adı altında fəaliyyətə başlayan o ilk mətbuat orqanı, region universitetində çap olunan ilk mətbuat tribunası kimi tarixin qızıl səhifələrinə yazılmışdı. O zaman mənim sələfim fikirləşməyi, düşünüb müqayisə etməyi, nəticə çıxarmağı bacaran azad zəkalar üçün söz kürsüsü kimi səciyyələndirilirdi. İllər bir-birini əvəz etdi, Avropa təhsil sisteminə inteqrasiya və dəyişən zamanın dinamik tələbləri ilə "Fikir" zamanla bülleten formatına keçdi. Lakin universitet mühitinin canlı nəfəsi, yaradıcı gənclərin coşğun, sərhəd tanımayan ilhamı rəsmi bülletenlərin dar çərçivəsinə sığmırdı.

Məhz bu böyük mənəvi ehtiyacdan, yaradıcılıq coşğusundan doğuldu "Yeni fikir". Mən köklü "Fikir" ənənəsinin varisiyəm, onun yeni mərhələsinin müasir səsiyəm. Rəsmi mətbuat bülletenlərinə sığmayan həyəcanlı bədii-publisist yazılara, kövrək tələbə esselərinə, dərin elmi təhlillərə və sərbəst publisistik düşüncələrə öz qucağımı hər zaman açdım. Mən informasiya mənbəsindən daha çoxuyam. Jurnalistika ixtisasında təhsil alan tələbələr, taleyini sözün sehri ilə bağlamaq istəyən gənclər üçün canlı peşə məktəbi, ilham ocağıyam. Mənim ağ səhifələrimdə gələcəyin peşəkar jurnalistləri ilk dəfə cəsarətlə qələmlərini sınayır, publisistika sənətinin incəliklərini öyrənir, səhifə maketi qurur, fotojurnalistikanın sirlərini mənimsəyərək gələcək peşələrinə ilk addımlarını atırlar.

Mən Naxçıvan Dövlət Universitetinin şanlı keçmişi ilə nurlu gələcəyi arasında qurulmuş möhkəm mənəvi körpüyəm. Tələbə otaqlarında, səsli-küylü auditoriyalarda, müəllim masalarında vərəqləndikcə yaşayıram, yaşadıqca da gənc zəkaların maarifçi işığını, azad düşüncəsini və yaradıcılıq həvəsini gələcək nəsillərə ötürürəm. Mən "Yeni fikir"əm – universitetin dəyişməz, əbədi və azad söz kürsüsüyəm!

***Elnurə Cəfərova***

# “Əkinçi”dən süni intellekt dövrünə Azərbaycan milli mətbuatı

## (22 iyul – Azərbaycan Milli Mətbuat Günü münasibətilə)

***Həqiqətə xidmət edən söz medianın əbədi prinsipidir!***

Milli mətbuatın yaranması təkcə bir qəzetin nəşrə başlaması deyil, xalqın maariflənməsi, milli özünüdərkin formalaşması və ictimai fikrin inkişafında yeni bir mərhələnin başlanğıcı idi. 1875-ci il iyulun 22-də Həsən bəy Zərdabinin nəşr etdirdiyi “Əkinçi” qəzeti Azərbaycan milli mətbuatının təməlini qoymaqla yanaşı, xalqın maariflənməsi, ana dilinin inkişafı və ictimai düşüncənin formalaşması istiqamətində misilsiz xidmət göstərdi.

Ötən 151 il ərzində Azərbaycan mətbuatı müxtəlif ictimai-siyasi mərhələlərdən keçərək müasir informasiya cəmiyyətinin mühüm institutlarından birinə çevrildi. Texnologiyalar dəyişir, informasiyanın ötürülmə vasitələri yenilənir, kommunikasiya imkanları genişlənir. Lakin jurnalistikanın cəmiyyət qarşısındakı əsas missiyası əsrlərdir dəyişmir – həqiqəti araşdırmaq, onu qorumaq və ictimaiyyətə çatdırmaq. 151 il əvvəl bu həqiqəti cəmiyyətə çatdırmaq üçün “Əkinçi” nəşr olunurdu. Bu gün isə eyni missiya rəqəmsal platformalarda, sosial şəbəkələrdə və süni intellekt texnologiyalarının müşayiəti ilə davam edir. İnformasiyanın istehsalı və yayılması görünməmiş sürət qazanıb, lakin onun etibarlılığına olan ehtiyac heç vaxt indiki qədər böyük olmayıb. Yəni jurnalistikanın cəmiyyətə doğru, dəqiq, qərəzsiz və etibarlı informasiya çatdırmaq kimi əsas missiyası dəyişməyib.

Rəqəmsal əsrdə bəşəriyyət tarixdə görünməmiş həcmdə informasiya istehsal edir. Hər saniyə dünyanın müxtəlif nöqtələrində minlərlə xəbər hazırlanır, milyonlarla paylaşım edilir, saysız-hesabsız foto və videolar qlobal informasiya axınına daxil olur. Lakin informasiyanın həcmi artdıqca onun doğruluğunu müəyyənləşdirmək və etibarlılığını qorumaq daha mürəkkəb və məsuliyyətli vəzifəyə çevrilir. Çünki informasiya bolluğu həqiqətin bolluq demək deyil. Əksinə, dezinformasiya, manipulyativ məzmun, saxta xəbərlər və süni intellekt vasitəsilə hazırlanmış saxta görüntülər informasiya məkanını daha mürəkkəb edir.




Rəqəmsal dövrdə media qurumları saniyələr uğrunda yarışırlar. Lakin jurnalistika tarixinin ən mühüm dərslərindən biri budur ki, sürətlə yayılan hər informasiya həqiqət olmur.

“Qəzet xalqın güzgüsüdür”. Bu fikir Həsən bəy Zərdabinin maarifçilik missiyasını ən dolğun ifadə edən yanaşmalardan biridir. Əgər “Əkinçi” dövrünün əsas məqsədi xalqı savadlandırmaq, maarifləndirmək və milli düşüncəni formalaşdırmaq idisə, XXI əsrin jurnalistikasının başlıca vəzifələrindən biri informasiya bolluğu içərisində doğru, etibarlı və dəqiq xəbəri cəmiyyətə çatdırmaqdır. Müasir oxucu artıq informasiya qıtlığından deyil, əksinə, informasiya bolluğundan əziyyət çəkir.

Bu şəraitdə jurnalistin əsas üstünlüyü xəbəri ilk paylaşmaq deyil, onu dəqiqləşdirmək, mənbələri yoxlamaq və hadisələri obyektiv təhlil etmək bacarığıdır.

Son illərdə süni intellekt jurnalistikanın ayrılmaz tərkib hissəsinə çevrilməyə başlayıb. Xəbərlərin hazırlanması, məlumatların təhlili, tərcümə və multimedia istehsalı artıq süni intellekt alətlərinin dəstəyi ilə həyata keçirilir. Bu texnologiyalar jurnalistin işini xeyli asanlaşdırır.

Bir vaxtlar qəzeti çap etmək üçün mətbəə ən böyük texnoloji yenilik hesab olunurdu. Bu gün isə süni intellekt xəbərin hazırlanmasına kömək edir. Tarix göstərir ki, jurnalistika hər texnoloji inqilabın yaratdığı dəyişikliklərə uyğunlaşmağı bacarıb. Lakin onun davamlılığını təmin edən texnologiyalar deyil, həqiqətə sədaqəti, peşə etikası və cəmiyyət qarşısında daşıdığı məsuliyyətdir.

Müasir jurnalistin peşə bacarıqları da dəyişir. Yazı yazmaq və müsahibə götürmək artıq kifayət etmir. Data jurnalistikası, multimedia hekayəçiliyi, faktların rəqəmsal yoxlanılması, informasiya təhlükəsizliyi, media savadlılığı və süni intellekt alətlərindən etik istifadə yeni dövrün əsas peşə kompetensiyalarına çevrilir.

Azərbaycanda son illərdə media sahəsində həyata keçirilən islahatlar, rəqəmsal transformasiyanın təşviqi, peşəkar jurnalistikanın dəstəklənməsi və media savadlılığının inkişafı milli informasiya məkanının möhkəmləndirilməsinə xidmət edir. Bu proseslər göstərir ki, müasir dövrdə medianın inkişafı yalnız texnoloji yeniliklərlə deyil, peşəkarlıq, etik məsuliyyət və ictimai etimadla ölçülür. Sözün məsuliyyəti, həqiqətə sədaqət və cəmiyyət qarşısında vicdan borcu isə bu gün də Azərbaycan milli mətbuatının ən böyük dəyəri olaraq qalır. Çünki texnologiyalar inkişaf etdikcə, informasiya məkanı mürəkkəbləşdikcə peşəkar jurnalistikaya olan ehtiyac daha da artır. Milli mətbuatın gələcəyi də məhz bu etimad üzərində qurulacaq.

Milli mətbuatın 151 illik tarixindən çıxarılan ən mühüm nəticə budur: həqiqətə xidmət edən söz yalnız dövrünün deyil, gələcəyin də yaddaşına çevrilir. Bu yaddaşı qorumaq və zənginləşdirmək isə hər bir jurnalistin, media qurumunun və bütövlükdə cəmiyyətin ortaq məsuliyyətidir.

Qəzet səhifələri zaman keçdikcə saralır, texnologiyalar dəyişir, amma həqiqətə xidmət edən söz heç vaxt köhnəlmir!

***Şəhla Şirəliyeva***
***Filologiya üzrə fəlsəfə doktoru, dosent***

# Müasir milli mediamızın gələcək inkişafı üçün başlıca amil: uğurlu kadr hazırlığı

1967-ci ildən fəaliyyət göstərən Naxçıvan Dövlət Universiteti elmi fəaliyyətin və tədrisin təşkili, tələbəyönümlü təhsil proqramları, beynəlxalq elmi mühitə inteqrasiya imkanları ilə bu gün dünya ali təhsil sistemində layiqli yer tutan ali təhsil ocaqlarımızdandır. Universitet 2023-2027-ci illəri əhatə edən beş illik strateji inkişaf planını uğurla həyata keçirməklə təhsil, tədqiqat, beynəlmiləlləşmə və resurslar əsas strateji inkişaf prioritetlərini reallaşdırmaqdadır. Bununla Naxçıvan Dövlət Universiteti yaxın gələcəkdə qeyd edəcəyi 60 illik yubileyi tədqiqat universitetinə çevrilməklə qeyd etməyi ali məqsəd kimi qarşıya qoyub. Muxtar respublikanın əsas kadr təminatçısı kimi özünü təsdiqləyən, xarici ölkə vətəndaşlarının da maraq dairəsində olan universitetin Jurnalistika sahəsi üzrə kadr hazırlığında da özünəməxsus rolu var.

2001-ci ildən universitetdə Jurnalistika ixtisasının fəaliyyətə başlaması, 2002-ci ildə indiki “Jurnalistika və rəqəmsal media” kafedrasının yaradılması onilliklər boyu informasiya blokadasından da əziyyət çəkən regionda ali təhsilli jurnalist mütəxəssislərin yetişdirilməsinə hədəflənmiş mühüm addım idi. Bu illər ərzində bir sıra uğurlara imza atan kafedraya hazırda Naxçıvan Muxtar Respublikasınını Əməkdar jurnalisti, filologiya üzrə fəlsəfə doktoru Şəhla Şirəliyeva rəhbərlik edir. Universitetin Jurnalistika ixtisası üzrə hər il orta hesabla 15 nəfər bakalavr məzunu olur. 2005-ci ildən etibarən universitetdə “Mətbuat tarixi”, “Radiotelejurnalistika” və “Beynəlxalq jurnalistika” ixtisasları üzrə magistr hazırlığı da uğurla davam etdirilir. Bu ali təhsil ocağında jurnalistika ixtisası üzrə peşəkar kadr hazırlığı istiqamətində qazanılan uğurlar bəzi Avropa ölkələrində analoqu olmayan fundamental praktiki baza ilə ilə də əlaqədardır.

Qəzetçiliyin, internet jurnalistikasının, sayt yaradıcılığının elmi-təcrübi




əsaslarının tələbələrə öyrədilməsində Naxçıvan Dövlət Universitetinin Media və ictimaiyyətlə əlaqələr şöbəsi müstəsna rola malikdir. 2000-ci ilin iyun ayından fəaliyyət göstərən Mətbuat xidməti, 2009-cu ildə isə bu qurumun əsasında Mətbuat şöbəsi kimi fəaliyyətə başlayan şöbə universitetlə media arasında əlaqələndirici rol oynayan şöbə jurnalist tələbələrin yerli və mərkəzi mətbuata çıxışlarını təmin etmək istiqamətində də iş aparır. Mətbuat şöbəsi tələbələrin yaxından iştirakı ilə universitetdə elm və təhsil, tədris prosesində baş verən yeniliklər, beynəlxalq əməkdaşlıq sahəsindəki uğurlar, xarici səfərlər, mədəniyyət və idman hadisələri barədə operativ informasiya əldə etmək və mətbuatda işıqlandırmaq vəzifəsini həyata keçirir. Belə ki, universitetin müxtəlif tərkibli heyətinin Cənubi Koreya Respublikasına, Türkiyə Cümhuriyyətinə, İran İslam Respublikasına, Rusiyanın Moskva, Novosibirsk şəhərlərinə səfərləri ilə bağlı mətbu orqanlarda maraqlı bədii-publisistik yazılar işıq üzü görmüşdür. Şöbənin əməkdaşları müxtəlif beynəlxalq konfrans və simpoziumlarda iştirak edərək sertifikatlarla təltif olunmuşlar. Universitet televiziyasının çəkdiyi sənədli filmlərin, hazırladığı verilişlərin ssenariləri jurnalist tələbələrin də iştirakı ilə burada hazırlanır. Şöbə mətbuat orqanlarının elm və tədris yönlü informasiyalara olan tələbatını ödəyir, milli elmin, təhsilin inkişaf tempinin geniş oxucu kütləsinə çatdırılmasında fəal iştirak edir.

Naxçıvan Dövlət Universitetində Jurnalistika ixtisası tələbələrinin peşəkar səviyyədə hazırlanmasında fundamental praktik baza rolu oynayan müxtəlif qurumlar mövcuddur ki, bu qurumlar 22 iyul 2011-ci il tarixdən etibarən Azərbaycan ali təhsil sistemində analoqu olmayan “Media Mərkəzi” şəklində formalaşmışdır. Onlardan ən təcrübəlisi, Azərbaycan ali məktəb nəşriyyatları arasında xüsusi yeri olan, 1997-ci ildən fəaliyyət göstərən elm yönlü, müasir tipli, ən yeni mətbəə avadanlıqları ilə təchiz olunmuş, yüksək poliqrafik keyfiyyəti ilə seçilən “NDU Nəşriyyat”dır. Tələbələrin nəşriyyat işinin əsaslarını, mətbəə proseslərini və avadanlıqlarını öyrənmələri üçün burada mükəmməl şərait vardır. Nəşriyyatda ictimai-siyasi, elmi-pedaqoji, tədris-metodiki, bədii ədəbiyyatlar, “Elmi əsərlər” jurnalı və “Yeni fikir” qəzeti çap olunur.



2025-ci ildə “NDU Nəşriyyat”a 350 min manat dəyərində yeni mətbəə avadanlıqları alınması, universitetin digər qurumları kimi nəşriyyatının da ən müasir təchizatlarla təmin olunması bütövlükdə muxtar respublikada nəşriyyat-poliqrafiya sahəsində mühüm yeniliklərin əsasını qoydu. Yeni laminasiya cihazları, binderlər, üzləmə avadanlıqları və UV rəqəmsal təsvir printeri çap məhsullarının yüksək keyfiyyətlə hazırlanmasını təmin edir. Xüsusilə ən son yeniliklərdən biri olan UV rəqəmsal təsvir printeri vasitəsilə müxtəlif materiallar üzərində yüksək keyfiyyətli və davamlı çaplar aparılır. Bu texnologiyalar ilə hazırlanan reklam-təqdimat məhsulları, simvolik hədiyyələr, lövhələr, tablolar və digər tətbiqi işlər imkan verir ki, universitet ən müxtəlif beynəlxalq tədbirlərdə öz elmi novatorluğu, tədris keyfiyyətindəki üstünlükləri ilə yanaşı bu sahədəki unikallığı ilə də seçilsin.



İnnovativ və funksional imkanlara malik, müasir çap və emal avadanlıqları ilə təchiz olunan nəşriyyatın müasir maddi-texniki bazası nəşriyyat-poliqrafiya işinin ən son yeniliklərini elmi-praktik cəhətdən öyrənmək üçün tələbələrə geniş imkanlar açıb.

Yeri gəlmişkən qeyd etməliyik ki, Naxçıvan Dövlət Universitetinə məxsus müxtəlif mətbu nəşrlər, xüsusilə də Azərbaycan təhsil tarixinə region universitetində nəşr olunan ilk mətbuat orqanı kimi düşən, ilk sayı 1991-ci il 15 oktyabr tarixdə işıq üzü görən “Fikir” qəzeti jurnalist tələbələr üçün əsl peşəkarlıq məktəbidir. Qəzetin adı vaxtilə Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinin inspektoru A.O.Çernyayevskinin həmin seminariyanın naxçıvanlı məzunu Əliməmməd Xəlilovla birlikdə nəşr etdirmək istədikləri, lakin çapına nail ola bilmədikləri maarifçi qəzetin adından götürülmüşdür.

***Ardı 15-ci səhifədə***

28 oktyabr 1997-ci ilədək fəaliyyətini davam etdirmiş, 44 sayı işıq üzü görmüş qəzet bu mühitin mətbu salnaməsinə çevrilmişdir.1998-ci ilin iyun ayında müasir dövrün tələblərinə uyğun olaraq Avropa universitetlərinə inteqrasiya nəticəsində Qərb ali məktəblərinin qəzet deyil, informasiya bülleteni tipli jurnal nəşr edilməsi təcrübəsinə əsaslanaraq "Fikir" qəzetinin bazasında eyniadlı informasiya bülleteni nəşr olundu. Bu jurnal Naxçıvan elmi mühitini, universitetin keçdiyi inkişaf yolunu, burada baş verən yenilikləri məharətlə inikas etdirir.


Lakin "Fikir" informasiya bülleteni elmi, ədəbi-bədii düşüncənin məhsulu olan publisistika nümunələrini geniş mənada ali məktəb auditoriyasına çatdırmaq tələbatını ödəyə bilmədiyi üçün informasiya bülleteni ilə yanaşı, yenidən çox tirajlı ali məktəb qəzetinin nəşrinə zərurət yaranmışdı. Buna görə də 1 aprel 2011-ci ildə "Yeni fikir" adlı qəzet yenidən tədris mühitinə daxil oldu. Profilinə görə informasiya bülletenində gedə bilməyən elmi-kütləvi, bədii-publisist yazılar, geniş müsahibələr üçün də yaradıcılıq üfüqlər açan "Yeni fikir" universitet mühitindəki elmi-maarifçi baxışların ədəbi-düşüncə ilə zənginləşməsinə xidmət edir. Universitetin müəllim və tələbələrinin söz tribunasına çevrilən qəzet geniş oxucu kütləsi qazanıb. Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti, filologiya üzrə fəlsəfə doktoru Şəhla Şirəliyevanın




redaktorluğu ilə nəşr olunan qəzet ideya və üslubu, tərtibat rəngarəngliyi, tələbə yaradıcı prizmasını, istedad və təfəkkürünü əks etdirməklə, əlamətdar xüsusi buraxılışları ilə universitetin inkişaf dinamikasının ahəngdar ritmini özündə yaşadır.

27 aprel 2006-cı ildə Naxçıvan Dövlət Universitetinin televiziyasının (NDUTV) fəaliyyətə başlaması tədris yönlü televiziya yaradılması baxımından Azərbaycan ali təhsil tarixində mühüm hadisə idi. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 11 oktyabr 2006-cı il tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikasının Rabitə və Yeni Texnologiyalar Nazirliyi tərəfindən televiziya dövlət qeydiyyatına alınmışdır. Nazirliyin ayırdığı xüsusi tezlik və ayrıca kanalda yayımlanma razılığı ilə NDUTV 42-ci kanalda 15 km radiusda həftənin bazar ertəsi, çərşənbə və cümə günləri saat 11-dən 15-dək proqram əsaslı efirdə olur.

Məlum olduğu kimi, 2015-ci ildə universitetin Cənubi Koreya Respublikasının Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyi (KOİCA) ilə birgə həyata keçirdiyi "Naxçıvan Dövlət Universitetində elektron təhsil şəbəkəsi və rəqəmsal multimedia infrastrukturu" layihəsi uğurla tamamlanmışdır ki, layihənin ikinci mühüm tərkib hissəsi məhz rəqəmsal multimedia infrastrukturu ilə bağlı idi. Layihə çərçivəsində "Universitet" televiziyasında yaradılan yeni infrastruktur video dərslərin hazırlanmasına və distant tədrisin tətbiqinə geniş imkanlar açmışdır. Bu məqsədlə televiziya müasir



texnologiyalarla təchiz olunmuş, ötən müddət ərzində universitetin Elmi Kitabxanasında videodərslərin yazılması üçün ayrıca studiya qurulmuşdur. Kontentlərin



– videodərslərin "HD" formatda çəkilib universitetin internet portalındakı müəllimlər üçün ayrılmış "Elektron mühazirə" bölməsinə yerləşdirilməsi prosesi universitetdə distant təhsilə keçidə və elektron universitetin yaradılmasına təkan verən başlıca amildir .

Əsas yaradıcı heyəti universitetin Jurnalistika ixtisasının müəllim və tələbələrindən ibarət olan televiziyada qısa müddət ərzində aparıcılar, montajçı və operatorlar, müxbirlər, redaktor və texniki heyət formalaşmış, onların bir qismi ölkəmizin, eləcə də muxtar respublikamızın televiziya və radiolarında uğurla fəaliyyət göstərir. NDUTV-də müasir texnologiyalardan istifadənin mənimsənilməsi üçün tələbələrə mükəmməl şərait yaradılmışdır. Tələbələr tədris prosesində televiziyanın geniş imkanları hesabına yaradıcılıq təcrübəsi qazanır, burada sənət dərsləri keçməklə püxtələşir, telejurnalistikanın sirlərinə yiyələnirlər. Universitetdə, eyni zamanda Azərbaycanda və dünyada elm, təhsil sahəsindəki son yeniliklər barədə rəngarəng verilişlər hazırlanır. Professor-müəllim heyətinin aktuallıq kəsb edən mühazirələri efir vasitəsilə geniş auditoriyaya çatdırılır. Canlı yayımla qloballaşan dünyamızın tələblərindən biri sayılan telekörpülərin, videokonfransların, videodərslərin yayımlanması təmin olunur. Jurnalist tələbələrin fəal iştirakı ilə Naxçıvan Dövlət Universitetinin tanıtma filmi, "Vəhdətin dayaq nöqtəsi", "Müdriklik fəlsəfəsi", "Vətən sığır ürəyimə", "Ecazkar mavi işıq", "Ziyalı ömrü", "Elektron Naxçıvan: dünyaya virtual pəncərə", "Bir ömrün simfoniyası" kimi uğurlu sənədli filmlər məhz burada hazırlanmışdır. "Media Mərkəzi"ndə işin daha da təkmilləşdirilməsi məqsədilə 2024-2025-ci tədris ilində ümumi dəyəri 223 min manat olan, 17 aksesuar ilə birgə 10 adda yeni avadanlıq alınıb. Rəqəmsal TV ötürücüsü, "Sony" markalı fotoaparat, "Gimbal" sabitləyici və hərəkətli kamera, iki ədəd müasir tələblərə cavab verən müasir montaj kompüteri, iki ədəd videokamera, televiziya montaj və yayım sistemlərinin işini idarə edən və efirə rahat çıxışa imkan verən çəkiliş pultu, əlaqə qurğuları efir keyfiyyətini yüksəltmək, çəkiliş və yayım işlərini yüksəltmək hesabına rəngarəng verilişlər hazırlamağa, bununla da dünya təhsil sistemində nümunəvi tədrisyönlü televiziya qurulmasına xidmət edir. Yaradılan imkanlar, "Tələbə imzası", "Bir addım öndə", "NDU-Gündəm" və tələbə yozumu ilə efirə vəsiqə qazanan digər silsilə verilişləri NDUTV-ni muxtar respublikamızın ali təhsil dünyasının mavi güz-güsünə çevirib. Bu güzgüdə gərgin elmi-pedaqoji fəaliyyət meydanından coşqun və qayğısız tələbə dünyasına, gəncliyimizin intellekt və istedad potensialına kimi bütün tərəfləri ilə ecazkar bir dünya canlanır. NDUTV eyni zamanda gələcəyin mükəmməl telejurnalistlərinə, efir peşəkarlarına bu sənəti bütün incəlikləri ilə sevdirəcək, onları ilk efir həyəcanı ilə başlayan peşəkarlığa uğurlaya- caq bir mühitə çevirib.

Universitetin media dünyasının ən gənc nümayəndəsi ilk dəfə 22 iyul 2011-ci ildə efirə çıxan "Nuhçıxan" radiosudur. Müasir avadanlıqlarla təchiz olunmuş "Nuhçıxan radiosu"nda həftənin I, III, V günləri saat 11:00-dan-15:00-dək proqram əsaslı yayım təqdim olunur. Tədrisyönlü radioda universitetin gündəlik həyatını işıqlandıran informasiya proqramlarının, vətənpərvərlik mövzusunda verilişlərin, maraqlı müsahibələrin hazırlanmasında jurnalist tələbələrin də əməyi var. 10 km ərazidə yayımlanan "Nuhçıxan" radiosunun "Musiqi çələngi", "Mikrofon arxasında", "Tarixi şəxsiyyətlər", "Onlayn səyahət" adlı verilişləri, müxtəlif ədəbi-bədii kompozisiyalar, milli musiqilər gənc nəslin bədii zövqunun formalaşmasına, milli ruhda tərbiyə olunmasına xidmət edir. Universitetin "Jurnalistika və rəqəmsal media" kafedrasının muxtar respublikanın kütləvi informasiya vasitələri ilə sıx əməkdaşlığı və yaradılan şərait nəticəsində jurnalist tələbələr Naxçıvan Muxtar Respublikası Ali Məclisinin orqanı olan "Şərq qapısı" qəzetində, Naxçıvan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində təcrübədə olaraq püxtələşir, peşə vərdişlərinə yiyələnirlər. Jurnalistika və media idarəçiliyi üzrə mütəxəssis, Türkiyə, Sloveniya, Çexiya və digər ölkələrdə yeni media sahəsində seminarlar keçən və müxtəlif beynəlxalq təşkilatlar üçün "İnternet jurnalistika" üzrə layihələr hazırlayan Emin Hüseynzadə Naxçıvan Dövlət Universitetində Jurnalistika ixtisasının müəllim və tələbələri üçün "İnternet jurnalistika" mövzusunda seminar keçmiş, Azərbaycan Respublikasının Əməkdar jurnalisti Bəxtiyar Sadiqov, Azərbaycan və MDB Kinematoqrafçılar İttifaqının və Azərbaycan Peşəkar Kinorejissorlar Gildiyasının üzvü, kinorejissor Tahir Əliyev, çoxsaylı sənədli filmlərin müəllifi İlham Tumas və digər tanınmış jurnalistlərlə görüşlər, Bakı Dövlət Universitetinin professoru Qulu Məhərrəmli, siyasi elmlər üzrə fəlsəfə doktoru, jurnalist, nitq təlimçisi İradə İsak və digərləri təlimlər keçmişdir.




Xüsusilə də MEDİA Agentliyinin Naxçıvan regional idarəsinin təşəbbüsü ilə reallaşdırlan "Media könüllüləri" Proqramı, layihə və müsabiqələr tələbələrin media savadlılığının və peşəkar bacarıqlarının inkişafına xidmət etməklə onlarda jurnalistika sənətinə sevgi və məsuliyyət hissi aşılamaq baxımından da faydalı oldu.

Ötən il milli mətbuatın 150 illik yubiley tədbirləri çərçivəsində Naxçıvanda keçirilən "Qlobal informasiya mühiti və media trendləri" konfransı – "MEDİAFEST-2025" zamanı Naxçıvan mediasının tarixini, fəaliyyətini, başlıca nailiyyətlərini əks etdirən sərgi də nümayiş olunub. Naxçıvan Dövlət Universiteti konfransın təşkilində fəal iştirak etməklə yanaşı, universitetdə Jurnalistika ixtisası, Media Mərkəzinin çoxcəhətli fəaliyyətini əks etdirən stend ilə də təmsil olunub.




Stenddəki fotoşəkillər, "Media Mərkəzi" tərəfindən jurnalist tələbələrin iştirakı ilə çəkilən verilişlərdən hazırlanmış videoçarx ali təhsil ocağında ali təhsilli jurnalist ixtisası hazırlığı üçün müasir şəraitin göstəricisi kimi konfrans iştirakçıları tərəfindən böyük maraqla qarşılanıb.

"MEDİAFEST-2025" çərçivəsində Naxçıvan Dövlət Universitetində Bakı Dövlət Universitetinin professoru Qulu Məhərrəmli və həmin universitetin Jurnalistika fakültəsinin dekanı Vüqar Zifəroğlu tələbələrlə görüşüb, öz akademik və praktik təcrübələrini bölüşüblər. Bu görüş tələbələr üçün öz sənət idealları ilə canlı ünsiyyətdə olmaq, onlardan millilik, obyektivlik, ictimai məsuliyyət örnəyi götürmək, gələcək fəaliyyətlərində yenilikçiliyə və akademik yanaşmaya üstünlük vermək baxımından əsl ustad dərsi oldu.

Azərbaycan dövlətinin uzaq gələcəyə hədəflənmiş çoxşaxəli media siyasəti muxtar respublikada ali təhsilli jurnalist kadrların hazırlanması baxımından da qarşıya mühüm vəzifələr qoyur. Son illərdə Azərbaycan media mühitinin hərtərəfli modernləşdirilməsi istiqamətində atılan real addımlar, rəqəmsal inkişafın sürətləndirilməsinə, süni intellektin ən müxtəlif sahələrə daha geniş tətbiqi ilə bağlı qəbul edilən mühüm dövlət sənədləri jurnalistikanın tədrisi, hərtərəfli yüksəkixtisaslı kadr hazırlığı baxımından Naxçıvan Dövlət Universitetində də bu sahədə yeni islahatların həyata keçirilməsinə təkan verib. Rəqəmsallaşma və texnologiyanın inkişafı, medianın artıq yalnız televiza və radio, mətbuatla məhdudlaşmaması, sosial medianın, onlayn platformaların, eləcə də kontent istehsalının sürətlə inkişafı dövlət və şirkətlər üçün düzgün informasiya təminatçısına çevrilə biləcək, PR, marketinq, media idarəçiliyi kimi sahələrdə fəaliyyət göstərə biləcək peşəkar kadrların yeişdirilməsi tələblərini ortaya qoyur. Məhz bu məqsədlə adındakı yenilikdən də göründüyü kimi "Jurnalistika və rəqəmsal media" kafedrası növbəti tədris ilindən fəaliyyət istiqamətini genişləndirərək praktik yönümlü, multidisiplinar, müasir bacarıqları özün də əks etdirən "Media savadlılığı", "Mobil jurnalistika", "İctimaiyyətlə əlaqələr", "Süni intellekt və media", "Konflikt jurnalistikası", "Rəqəmsal media", "Konvergensiya və media inteqrasiyası" kimi yeni fənlərin tədrisinə start verəcək. Yaxın gələcəkdə isə "Kommunikasiya və rəqəmsal media" adlı yeni ixtisasın açılması ilə Naxçıvan Dövlət Universiteti muxtar respublikada müasir beynəlxalq tələblərə cavab verəcək peşəkar jurnalist kadrları hazırlanmasında yeniliyə imza atacaq.

Uğurlu kadr hazırlığı prosesində Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayevin Jurnalistika ixtisasının müəllim və tələbələri ilə görüşləri, kadr hazırlığının müasir tələblər çərçivəsində sistemli və düzgün şəkildə formalaşdırılması, tələbələrin nəzəri və təcrübi bilgilərinin zənginləşdirilməsi, onlarda peşə vərdişlərinin aşılanması baxımından mühüm rol oynayır. Rektorun media nümayəndələri üçün keçirdiyi brifinq, idarəetmədə operativlik, universitet-tələbə münasibətlərində müraciətlərin çevik cavablandırma baxımından mühüm əhəmiyyət kəsb edən "Açıq mikrofon" layihəsinin keçirilməsi tələbə jurnalistlərdə də natiqlik, diskussiya və polemika səriştəliliyi, vətəndaşlıq mövqeyi, dövlətçiliyə sədaqət, ictimai məsuliyyət, informasiya təminatında operativliklə yanaşı, şəffaflıq və qərəzsizlik amillərinə riayət etmək baxımından da örnək rolu oynayır.

Bu gün Azərbaycan mətbuatının 151 illik şərəfli tarixi yoluna nəzər saldıqda iftixarla qeyd etməliyik ki, milli mətbuatımız istər millilik və bəşərilik ideyalarının təbliği, istərsə də informasiya siyasətinin düzgün müəyyənləşdirilməsi baxımından dünya media sistemində layiqli yer tutmaqdadır. İnanırıq ki, Azərbaycanın ərazi bütövlüyünün, suverenliyinin tam təmin olunması, tarixi zəfər sevinci ilə qələmə sarılan tələbə jurnalistlərimiz doğma Qarabağdakı quruculuq və məskunlaşma proseslərini işıqlandırmaqla, çox yaxında Zəngəzurdan, Dərələyəzdən hazırlanacaq ilk reportajların müəllifləri olmaqla müstəqil Azərbaycan dövlətinin qalibiyyət, tərəqqi salnaməsini yaratmaqdan böyük zövq və qürur duyacaq, Azərbaycan dövlətinin inkişaf strategiyasının yorulmaz təbliğatçısı, tərənnümçüsü olacaq!

***Mehriban Sultan***
***Naxçıvan Muxtar Respublikasının***
***Əməkdar jurnalisti,***
***filologiya üzrə fəlsəfə doktoru***

# Naxçıvanda media siyasəti: informasiya blokadasından qlobal yayıma

**Proloq yerinə**

Biz XX əsrin bəşəriyyət üçün sürprizlər sandığından bir-bir çıxardığı çox möcüzələrin şahidi olmuşuq. Fantastik xəyalların gerçəkliyə çevrilməsi yaşadığımız dövrün ən nəzərəçarpan əlaməti kimi özünü təsdiq edir. Yazının ixtirası, kağızın kəşfi, kitab çapının meydana çıxması bəşər tarixində yeni inqilabların təməli, bünövrə daşıdır. Informasiya daşıyıcısının ilkin vasitələri bizi qəzetdən radioya, televiziyadan internetə qədər gətirib çıxardı. Bütün bunlar informasiya inqilabının təzahürü olaraq bizi bu günə – internet və ya İKT əsri adlandırdığımız XXI əsrə qədər müşayiət edib.

**Blokada mətbuatı**

İndi Naxçıvan Muxtar Respublikasında həyatın hər hansı bir mərhələsindən danışanda həmişə bir məqamı mütləq vurğulamalı oluruq – vaxtilə blokada şəraitinin yaratdığı vəziyyət. 90-cı illərdə blokada muxtar respublika həyatının bütün sahələrini iflic edən, insanların yaşayış tərzi üzərində mütləq hakim olan bir amil idi.

80-ci illərin sonlarında Naxçıvanla birlikdə Naxçıvan mətbuatı da blokada vəziyyətinə düşmüşdü. Lakin Naxçıvan mətbuatı yazırdı, yaradırdı, döyüşürdü. "Şərq qapısı" qəzeti və Naxçıvan teleradiosu blokada illərinin fədaisi olaraq tariximizə misilsiz xidmət edir, xalqımızın başına gətirilən oyunları hər nömrəsində, hər yayım saatında salnamələşdirirdi.

Həmin dövrdə Ümummilli Lider Heydər Əliyevin Naxçıvanda yaşayıb fəaliyyət göstərməsi Naxçıvan parlamentində təkcə muxtar respublika üçün yox, həm də bütün Azərbaycan üçün əhəmiyyət daşıyan qərarların qəbul olunması ilə nəticələndi. Dahi rəhbərin Naxçıvanda başlatdığı azadlıq mücadiləsi muxtar respublikanın blokada mətbuatının gündəlik mövzusuna çevrildi. Beləliklə, Naxçıvandan başlanan azadlıq mübarizəsi Azərbaycanın hər yerini bürüdüyü kimi, Naxçıvanın informasiya blokadasının yarılmasının da əsasını qoydu.

**Naxçıvanda media siyasəti: dünən və bu gün**

Görkəmli dövlət xadimi Heydər Əliyev Naxçıvanda işlədiyi dövrdə bu diyarda informasiya blokadasını yarmaq üçün mühüm işlər həyata keçirdi, yerli və beynəlxalq media orqanları ilə əlaqələrin qurulması uğrunda gərgin əmək sərf etdi. Bunun nəticəsində muxtar respublikada Azərbaycan televiziyasının yayımı bərpa edildi, Naxçıvan dünyaya açıldı. Naxçıvan televiziyasının yayımı və "Şərq qapısı" qəzetinin nəşri üçün sistemli tədbirlər həyata keçirildi. Ulu Öndərin həyata keçirdiyi xilaskarlıq missiyasını öz səhifələrində əks etdirən "Şərq qapısı" qəzeti nəinki muxtar respublikada, eləcə də ölkəmizdə əl-ələ axtarılan mətbuat orqanına çevrildi.

Məhz həmin illərdə yeni dövrün dövlət-mətbuat münasibətlərinin uğurlu nəticəsi olaraq kütləvi informasiya vasitələri Heydər Əliyev siyasətinin ardıcıl və düzgün həyata keçirilməsində üzərlərinə düşən səfərbəredici missiyanı layiqincə yerinə yetirməyə çalışdı. Bu həm də müasir Naxçıvan mətbuatının yaranması ilə nəticələndi.

Bu gün artıq Naxçıvan bir zaman məkrli siyasət və təcavüz nəticəsində Ermənistan tərəfindən zorla salınan blokadanı informasiya baxımından çoxdan yarıb, düşmənlə aparılan informasiya savaşında cəbhəni bu istiqamətdə darmadağın edib. Əsl intibah dövrünü yaşayan Naxçıvan mətbuatının da intibah dövrünə imza atıb. Azərbaycan mediasının güclü bir qolunu təşkil edən və "Şərq qapısı" qəzeti ilə təşəkkül tapan Naxçıvan mətbuatı bölgənin dünənini, bu gününü qəzetlərin səhifələrinə həkk edib, lentlərin yaddaşına yazıb tarixləşdirir və gələcək nəsillərə ərməğan edir.

**Tənqiddən təqdirə qədər**

Nəqliyyat-kommunikasiya əlaqələrinin düşmən tərəfindən məhv edilməsinin bu torpaqda yaşayan insanların həyat şərtlərini nə qədər çətinləşdirdiyini çoxumuz şəxsi yaşamından bilirik. O dövrün jurnalistləri də Naxçıvanın problemlərini mətbuat səhifələrində daha çox qabardırdılar.

Həmin illərin nəşrlərinə nəzər salanda şəhər daxilində, küçə və yolların kənarında yaşıllıqların azlığından, əlaqədar təşkilatların biganəliyindən, dəftərsiz şagirdlərdən, təbii qazın kəsilməsi, daş kömürün olmamasından, qış günlərində məktəblərin normal fəaliyyət göstərməməsindən, qırışığı açılmayan uşaqlardan, iqtisadi həyatın pozulmasından, ərzaq qıtlığından, dəyən iqtisadi ziyanın miqdarından, hesablanması mümkün olmayan mənəvi ziyandan bəhs edən çoxlu sayda yazılar görə bilərik. Bütün bunlar həmin dövrün acı gerçəkləri, danılmaz reallığı idi...

Aradan ötüb keçən zaman isə həmin mənzərəni və mətbuatın haqqında bəhs etdiyi mövzuları tamamilə dəyişdirdi. İndi mətbuat Naxçıvanı Azərbaycanın qərb rayonları ilə birləşdirəcək Zəngəzur dəhlizindən, Azərbaycanı Türkiyə ilə bağlayacaq Qars-İğdır-Naxçıvan dəmir yolundan, Naxçıvan-İğdır qaz kəmərindən, muxtar respublikanın yaşıllıq zolaqlarından, landşaftda mühüm yer tutan yaşıl parklardan, ən ucqar kəndlərdə belə tikilmiş modern təhsil ocaqlarından, pulsuz dərs vəsaitləri ilə təmin olunan şagirdlərdən, mərkəzləşdirilmiş istilik sistemi ilə təchiz olunan inzibati, tədris və yaşayış binalarından, müasir yol-nəqliyyat infrastrukturundan, ərzaq və enerji təhlükəsizliyinin təmin olunmasından, "yaşıl enerji" potensialının inkişafı və ixracından, bu torpaqların ölkə və beynəlxalq əhəmiyyətli tədbirlərə ev sahibliyi etməsindən fəxr və qürurla bəhs edir.

**Mətbuatın təkanverici qüvvəsi: dövlət qayğısı**

Ulu Öndərin Naxçıvandan başlatdığı digər sahələrlə yanaşı, mətbuatı da əhatə edən missiyasının ölkə başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində muxtar respublika mətbuatı yeni inkişaf mərhələsinə qovuşub. İctimai həyatın bütün sahələrinin yeniləşdirilməsi cəmiyyətin informasiyaya olan tələbatının daha dolğun ödənilməsini, medianın fəaliyyətinin təkmilləşdirilməsini zəruri edir.

"Şərq qapısı" qəzeti redaksiyasına və Naxçıvan televiziyasına yeni avadanlıqların alınması, qəzetin, televiziyanın saytlarının təkmilləşdirilməsi medianın müasir tələblərə cavab verəcək şəkildə təmin olunması üçün həyata keçirilən dövlət siyasətinin hərəkətverici qüvvəsi oldu. Naxçıvan teleradiosunun müstəqil kanalda yayımlanmağa başlaması, analoq yayımın yüksək keyfiyyətli rəqəmsal yayımla əvəzlənməsi həyata keçirilən işlərin əyani təzahürünə çevrildi.

Azərbaycan Respublikası Prezidentinin "Media haqqında" Qanunda dəyişikliyin təsdiq edilməsi haqqında 1 may 2024-cü il tarixdə imzaladığı Qanuna əsasən "Şərq qapısı" qəzetinin rəsmi təsisçilik hüququ müvafiq qanunda təsbit olundu. "Media haqqında" Qanuna dəyişiklik Naxçıvan Muxtar Respublikası Ali Məclisinin "Şərq qapısı" qəzetinin təsisçisi statusunun qanunvericilikdə təsbit edilməsi və qəzetin fəaliyyətinin təmin olunmasının hüquqi əsasının yaradılmasını təmin etdi. Sənədə əsasən "Media haqqında" Qanunun 59.2-ci maddəsində göstərilən çap mediası subyektinin təsisçisi ola bilən dövlət orqanlarının (qurumlarının) sırasına Naxçıvan Muxtar Respublikası Ali Məclisinin adı əlavə olunmaqla Naxçıvan Muxtar Respublikası Ali Məclisinin "Şərq qapısı" qəzetinin təsisçisi statusunun hüquqi əsaslarının qanunvericilikdə təsbit edilməsini həyata keçirdi.

Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 17 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Audiovizual yerüstü yayım həyata keçirən dövlət orqanlarının (qurumlarının) Siyahısı"nda dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 15 avqust tarixli Fərmanına əsasən Audiovizual Şura tərəfindən 2024-cü il 23 avqust tarixdə "Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri" QSC-yə regional yerüstü televiziya yayımçısı lisenziyası və regional yerüstü radio yayımçısı lisenziyası verildi. Həmçinin regional yerüstü televiziya yayımını həyata keçirmək şərti ilə "Naxçıvan TV"yə peyk yayımı həyata keçirən platforma yayımçısı lisenziyasının da verilməsi haqqında qərar qəbul olundu. 2025-ci il mayın 30-da Naxçıvanda keçirilən "Qlobal İnformasiya Mühiti və Media Trendləri" – "MEDİAFEST-2025" konfransı çərçivəsində Naxçıvan televiziyası "Azerspace-1" peykində yayıma başladı.

Bu gün Naxçıvanda medianın fəaliyyəti üçün lazımi şərait yaradılıb, informasiya təhlükəsizliyi təmin olunub. Güclü maddi-texniki baza, bütün yaşayış məntəqələrinin fiber-optik kabel xətti və sürətli internetlə, IP televiziya və rəqəmsal yayımla təmin olunması informasiya-məlumatlandırma işinin səmərəliliyini xeyli artırıb.

Bu gün Naxçıvan Muxtar Respublikası Ümummilli Lider Heydər Əliyev ideyalarına əsaslanmaqla və ölkə başçısı İlham Əliyevin apardığı siyasəti dəstəkləməklə təkcə ərazi-iqtisadi blokadasını deyil, informasiya blokadasını da aradan qaldırmaqda nümunə gücünə malikdir.

**Davamediciliyin təminatı: kadr hazırlığı**

Medianın inkişafından danışarkən kadr hazırlığı məsələsi xüsusilə qeyd olunmalıdır. Çünki keyfiyyət dəyişikliyinə yalnız peşəkar kadr təminatı yaratmaqla nail olmaq mümkündür. Bu səbəbdən də teleradio, eləcə də "Şərq qapısı" qəzeti Jurnalistika ixtisası tələbələrinin fəaliyyətinə hərtərəfli şərait yaradır, istedadlı gənclər seçilərək işlə təmin olunur.

2001-ci ildən Naxçıvan Dövlət Universitetində Jurnalistika ixtisası fəaliyyət göstərir. Jurnalistika ixtisasının yaradıldığı ötən 25 il ərzində bu ixtisasın məzunları muxtar respublikanın müxtəlif kütləvi informasiya vasitələrində çalışaraq müasir mətbuatın formalaşmasına və inkişafına öz töhfələrini veriblər.

Tələbələrin iştirakı ilə keçirilən görüşlər, onların yaradıcılıq işində birbaşa iştirakı yaxşı kadr kimi formalaşmalarında xüsusi əhəmiyyət daşıyır. Beləliklə, bu mətbuat orqanları müvafiq ixtisasda təhsil alan tələbələrin bilik və bacarıqlarının inkişafı, eyni zamanda onların gələcəkdə peşəkar kadr kimi formalaşması və medianın kadr potensialının yaradılması işində birbaşa iştirak edirlər.

**Naxçıvan mətbuatı: qlobal şəbəkədən yayım**

Müasir veb-texnologiyalar elektron mətbuat orqanlarının daha sürətli formalaşması və yayılmasına şərait yaradır. Artıq virtual məkanın yaratdığı imkanlar hesabına planetin hansısa nöqtəsində baş verən hadisə haqqında məlumatların operativ olaraq istənilən məkana çatdırılması an məsələsinə çevrilib.

Naxçıvan Muxtar Respublikasında informasiyalaşma kimi nəhəng prosesin getməsi, informasiya cəmiyyətinin yaranması bu diyarda təkcə informasiya texnologiyaları sahəsində deyil, ümumilikdə, sosial-iqtisadi sahədə aparılan islahatların, görülən işlərin yaratdığı inkişaf nəticəsində mümkün olmuşdur. İnformasiya blokadasının yarılması və qlobal şəbəkədən yayımın başlanması ən vacib məsələlərdən biri kimi qarşıda dururdu. 1999-cu ildə Naxçıvan Kompüter Mərkəzində internetə qoşulma imkanının əldə olunması, provayderlərin fəaliyyətə başlaması Naxçıvanın informasiya blokadasının yarılması istiqamətində atılan mühüm addımlar idi.

2005-ci ilin iyun ayında Naxçıvan Trans-Asiya-Avropa fiber-optik magistral xəttinə qoşulmaqla informasiyanın daha sürətli axınını təmin etmək imkanı əldə etdi və Naxçıvan Dövlət Universitetində "Elektron Naxçıvan: problemlər və həllər" mövzusunda ilk elmi-praktiki konfrans keçirildi. Azərbaycanda ilk dəfə Bakı-Naxçıvan arası videokonfrans bağlantısının qurulması ilə tarixi əhəmiyyətli bir hadisəyə imza atıldı.

2010-cu ildə Naxçıvan Muxtar Respublikası İnternet Mərkəzinin yaradılması ilə müasir, etibarlı internet saytlarının qurulması istiqamətində də muxtar respublikada zəngin təcrübə qazanmağa, bacarıqlı mütəxəssislər formalaşdırmağa imkan verdi. İndi ən ucqar kəndlərdə belə genişzolaqlı internet, eləcə də IP və rəqəmsal televiziya xidmətləri göstərilir.

Naxçıvanın informasiya blokadasından çıxışının və qlobal şəbəkədən yayımının ilk qaranquşunu "Nuh yurdu" qəzetinin elektron versiyasının yaradılması hesab etmək olar. 2004-cü ildə muxtar respublikanın mətbuat tarixində ən əlamətdar hadisələrdən biri olur. Bu barədə Naxçıvan Şəhər İcra Hakimiyyətinin orqanı olan "Nuh yurdu" qəzetinin 2004-cü il 10 may tarixli sayında yazılıb: "www.nuhyurdu.az – qəzetimizin elektron variantda ilk nümunəsi Ümummilli Liderimizin 81 və Naxçıvan Muxtar Respublikasının 80 illiyinə bir töhfədir. Ümid edirik ki, Naxçıvan şəhərini elektron dünyada layiqincə təmsil edəcək". Düzdür, qəzetin internet üzərindən yayımlanması uzunmüddətli olmasa da, bu istiqamətdə həyata keçirilən ilk təşəbbüs kimi təqdirəlayiqdir.

Bu sahədə digər bir addım isə "Naxçıvanın səsi" radiosunun internet yayımının başlanması oldu. 2006-cı il yanvar ayının 17-dən etibarən www.nakhchivan.az üzərindən radionun yayıma başlaması elektron medianın internet üzərindən yayımı sahəsində ilk uğurlu addım oldu.

Naxçıvanın informasiya müharibəsində mühüm hadisələrdən biri 2012-ci ildə www.serqqapisi.az internet ünvanının yaradılması oldu. 2016-cı il oktyabr ayının 17-də isə Naxçıvan televiziyasının internet saytının istifadəyə verilməsi və televiziyanın internet üzərindən yayımının təmin olunması diyarımızın informasiya blokadasının yarılması yolunda ən böyük addım oldu.

2018-ci ildə Naxçıvan Muxtar Respublikasının ilk informasiya agentliyi – "Nuhçıxan" İnformasiya Agentliyi və onun nuhcixan.az saytı fəaliyyətə başladı.

İndi muxtar respublikada mərkəzi mətbuatın – Azərbaycan Dövlət Televiziyasının, İctimai televiziyasının, AZƏRTAC İnformasiya Agentliyinin, "Report", "APA", "Baku TV" kimi böyük media qurumlarının müxbir postları fəaliyyət göstərir. Bu isə sürətli informasiya axınının təmin edilməsinə və dolğun informasiyanın ölkə səviyyəsində yayımına əhəmiyyətli təsir göstərir.

**Son söz əvəzi**

Keçmiş informasiya blokadasından bugünkü qlobal yayıma qədər yol qət edən Naxçıvan mediası da böyük inkişaf yoluna qədəm qoyub. Naxçıvan Muxtar Respublikası haqqında dolğun informasiyanı qlobal şəbəkə üzərindən bütün dünyaya çatdırmağa qadir olan Naxçıvan mediası tarixi prosesin davamı və Naxçıvanın informasiya blokadasını çoxdan yarmış kütləvi informasiya vasitələri sistemində intibahın təzahürüdür.

*Məmməd BABAYEV*
*"Şərq qapısı" qəzetinin*
*baş redaktor müavini,*
*NDU-nun müəllimi*

# YARIM ƏSRDƏN SONRA ÜZƏ ÇIXAN XATİRƏ

1976-cı ildə Respublikanın müxtəlif bölgələrində Xalq şairi Səməd Vurğunun anadan olmasının 70 illiyi münasibəti ilə yubiley tədbirləri keçirilirdi. Belə tədbirlərdən biri də həmin ilin 23 oktyabrında Naxçıvanda baş tutmuşdu.



Bakıdan gələn qonaqlar içərisində şairin oğlu Vaqif Səmədoğlu da var idi.

Yubiley gecəsində Azərbaycan SSR Yazıçılar İttifaqı Naxçıvan Şöbəsinin katibi M.Nəsirlinin "Səməd Vurğunun yaradıcılığı" mövzusundakı məruzəsindən sonra yazıçı və şairlərdən İsmayıl Şıxlı, Hüseyn İbrahimov, şairlərdən Hüseyn Razi, Fikrət Sadıq və Elmira Qasımova çıxış etdilər.

H.İbrahimov S.Vurğun haqqındakı xatirələrini söylədi (xatirələr "Şərq qapısı" qəzetinin 28 sentyabr 1976-cı il tarixli 230-cu nömrəsində dərc edilib – F.X.).

İ.Şıxlı şair haqqında xatirə söyləmədi. Sadəcə olaraq S.Vurğunun böyük şair olması haqqında bir qədər danışdı. Axırda S.Vurğunun oğlu Vaqif Vəkilova söz verildi. O sözə başlayaraq atası haqqında indiyədək heç yerdə deyilməyən və yazılmayan bəzi xatirələrini söylədi.

İndi həmin tədbirin keçirildiyi gündən 50 illik bir müddət arxada qalıb. Vaqif Səmədoğlunun atası haqqında yarım əsr bundan əvvəl danışdığı xatirələr, şübhəsiz ki, müasir oxucular üçün maraqsız olmaz. Bunu nəzərə alaraq V.Səmədoğlunun yubiley gecəsində danışdığı xatirələrin tam mətnini oxuculara təqdim etməyi məqsədəuyğun hesab edirik.

***Atam haqqında xatirələrim***

Əziz naxçıvanlılar, bu qədim diyarda sizinlə görüşdüyüm üçün özümü çox xoşbəxt hiss edirəm. Oğul ata haqqında nə deyə bilər? Mənə elə gəlir ki, atamı burada tərifləsəm heç kim məni pis başa düşməz. Çünki o təkcə mənim atam deyildi, eyni zamanda milyonların mənəvi atasına çevrilmişdi.

Atam haqqında külli miqdarda məqalələr, xatirələr, monoqrafiyalar, dissertasiyalar yazılmışdır. Bunların çoxunu siz oxumusunuz, bilirsiniz. Mən onları təkrar etmək istəmirəm. Lakin yəqin ki, hamı Səməd Vurğunun oğlu kimi mənim ağzımdan atam haqqında xatirələr eşitmək istəyir. Ona görə mən sizə atama aid olan sizin eşitmədiyiniz, bilmədiyiniz bəzi şeylər haqqında danışacağam.

Əvvəl onu deyim ki, atamın xarici görünüşü onu tanıyanları heyrətə salırdı. Çünki onun 46-47 yaşı olmasına baxmayaraq, 80 yaşlı qocaya oxşayırdı. Mənə elə gəlir ki, bu təbii idi. O ki, yaşadığı illərdə başına gələnlərə dözmüşdü, 46-47 yaşında nəinki 80 yaşlı, hətta 120-130 yaşlı ixtiyar bir qoca kimi görsənməli idi.

Atam inadda Fərhad, mübarizlikdə Koroğlu, sevgidə isə – siz yəqin ki, onun gəncliyi ilə tanışsınız – Məcnun idi. Onun bircə hissi yox idi: kin hissi. Atam kin saxlaya bilmirdi. Onun kini yarım saatdan çox çəkməzdi.

1952-ci ilin iyul ayında Astraxana getmişdik. İki gün orada qaldıq. Taxıl biçininin əvvəli idi. Lakin suzuluqdan taxıl yanırdı. Buna görə atam çox dilxor idi. Nə isə... Astraxandan geri qayıdırdıq. Maşında mən, atam və sürücü Andrey əmi oturmuşduq. Həmişə deyən, gülən, zarafat edən atam susub oturmuşdu. Hətta ən çox zarafatlaşdığı Andrey əmi ilə də o, heç nə danışmırdı. Bakıya çatırdıq. Bayılın yanında gözlənilmədən elə möhkəm leysan yağışı başladı ki, mən hələ 1952-ci ildən bu günədək Bakıda belə güclü yağış yağdığını görməmişəm. Atam Andrey əmiyə dedi ki, Bayıla sür. Oraya çatdıq. Maşınımız raykomun binasının yanında dayandı. Maşından enib binaya daxil olduq. Bir başa katibin otağına girdik. Burada nə isə böyük bir iclas keçirilirdi. Bizim qəflətən içəri girməyimiz hamını çaşdırmışdı. Katib atama dedi ki, hara soxulursunuz, atam isə telefonlara yanaşıb dedi ki, bu telefonlardan hansı xidməti telefondur?


İçəridə əyləşənlərdən bir neçəsi atamı tanımışdı. Katibə işarə verdilər. Katib yenidən atamla görüşdü və atam xahiş etdi ki, Astraxanı tez al mənə ver. İki dəqiqəyədək Astraxanı aldılar. Telefonda Astraxanın o vaxtkı rayon komitəsinin katibi Qəhrəmanov idi. Salamsız, kəlamsız atam soruşdu. Ayə, Qəhrəmanov, orada da bir şey düşdümü? Sonra dəstəyi yerə qoydu və məni qucağına alaraq o üzümdən, bu üzümdən öpüb oynamağa başladı. Hamı mat qalmışdı.

Atam üzünü katibə tutub dedi ki, belə gözəl havada da içəri girib iclas edərlər? Atam orada əyləşənləri "İnturist" restoranına apardı və dedi ki, iclası da orada edərik. İclasda katiblik, restoranda isə hesabı kəsmək çətin işdir. Hər iki işi mən öz öhdəmə götürürəm.

Mən şadam ki, atamın pərəstişkarları tarixi abidələr diyarı olan Naxçıvanda bizi belə hərarətlə qarşılayırlar.

Atam tarixi abidələrə çox hörmətlə yanaşar və həmişə onları qorumağı tövsiyə edərdi. Yaxşı yadımdadır, 1954-cü ildə atam Azərbaycan SSR Elmlər Akademiyasının vitse-prezidenti vəzifəsində işləyəndə nə iş üçün isə onun yanına getmişdim. Otağına girəndə telefon zəng çaldı. Atam telefonun dəstəyini götürdü. Danışa-danışa gördüm ki, rəngi qaralır (onu da deyim ki, atam həmişə qəzəblənəndə bənizi qaçmazdı, rəngi qaralardı). O dəqiqə bildim ki, nə isə bədbəxt, xoşa gəlməyən bir hadisə baş veribdir. Atam dəstəyi yerə qoydu. Məlum oldu ki, zəng vuran Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinin o vaxtkı sədri Xalq yazıçısı Mirzə İbrahimovdur. Ona xəbər veriblər ki, Bakının təxminən 60 kilometrliyində yerləşən Qobustan qayalarına traktor salıblar, qayaları qoparıb daşa vermək istəyirlər. Bir neçə dəqiqədən sonra M.İbrahimovun "ZİM" markalı maşını gəldi (bu maşının sürəti çox olduğu üçün həmin maşınla Qobustana getməyi atam lazım bilmişdi). Biz bir göz qırpımında Qobustana çatdıq. Gördük ki, bir qədər kənarda bir traktor böyük bir qayanın üstündə hərəkət edir. Atam sürücüyə dedi ki, maşını saxla. Yanımızda iki nəfər prokurorluğun işçilərindən də var idi. Atam onlardan birini dartıb deyirdi: "Ayə, o tapançanı bir mənə ver görüm". O tapançanı ələ keçirib cəld maşından düşdü və çığıra-çığıra traktora tərəf qaçdı. Biz də onun dalınca qaçdıq və gəlib traktorun yanına çatdıq. Traktorçunun izi tozu da qalmamışdı, qaçmışdı. Gördük ki, traktor qopardığı sal qayanın üstündə çoxlu böyüklü-kiçikli gəmi rəsimləri var imiş, təəssüf ki, həmin rəsimlər əzilib dağılmışdı. Onu da deyim ki, indi Qobustanda belə gəmilərin yeganə bir şəkli qalır. O qayada isə böyüklü-kiçikli gəmi şəkilləri çox idi...

Atam çox dilxor halda daşların birinin üstündə oturdu. Şlyapası ilə üzünü örtdü. Bir az sonra şlyapanı




üzündən götürüb ata üçün də, oğul üçün də ən ağır sözlərlə mənə müraciət etdi:

- Yusifin, sənin meydini gətirsə idilər, bu qədər mənə təsir etməzdi.

Atamın gözləri yaşarmışdı. Mən onu ömrümdə üç dəfə ağlayan, əlbəttə, tam ağlayan yox, gözləri yaşaran halda görmüşdüm. Onlardan biri də yuxarıda dediyim gün idi.

Çox adam, yəni atamın oxucuları, o cümlədən mən də bir sual haqqında çox düşünmüşəm: görəsən, Səməd Vurğun nə üçün digər sənətkarlara nisbətən xalqın bu dərəcədə sevimlisinə çevrilmişdir? Mən bu sualın cavabını bir şeydə tapa bilmişəm. Şairin şəxsiyyətində, bəli, şəxsiyyətində. O, əsl insan hissləri ilə yaşayan bir adam idi. Hissləri bütöv idi. Sözdə necə idisə, işdə, əməldə də elə idi. Ömrünün çox hissəsini Bakıda yaşayan, bir ayağı Moskva, Leninqrad (indiki Sankt-Peterburq – F.X.), London, Paris və dünyanın bir çox şəhərlərində olan atam heç dəyişməmişdi. Hətta fəsillər bir-birini əvəz edəndə də – qışdan sonra yaz, yazdan sonra yay, yaydan sonra payız gələndə də atam bir kəndli kimi bu fəsilləri qarşılayardı. Havanın vəziyyəti gah onu dilxor edər, gah da sevindirərdi. Bir sözlə, atam öz xalqına sadiq idi, ona nankör olmamışdı. O, həmişə xalqını dünyaya tanıtmağa çalışmışdı. Mötəbər yerlərdə əvvəl Nizami, Fizuli, Vaqif və öz müasirlərini təbliğ edər, tanıdar sonra isə deyərdi ki, mən də varam. Bax bütün bunlara görə mənə elə gəlir ki, o hamının sevimlisi olmuşdur.

Atam vəfat edəndə mənim cəmi 17 yaşım var idi. Bu 17 il ərzində mənim atamla bağlı qəlbimdə xatirəyə dönən çoxlu sözlər vardır. Əgər xatirələrimi danışası olsam, onda gərək siz, qonağı olduğum əziz naxçıvanlılar 17 il əyləşib məni dinləyəsiniz.

Mənim üçün çox fəxrdir ki, böyük Xalq şairi Səməd Vurğunun oğluyam. Bu xoşbəxtlikdir. Lakin bu, eyni zamanda çox məsuliyyətli bir işdir. Çox zaman mənə və böyük qardaşım Yusifə deyirlər ki, siz də gərək atanız kimi olasınız, onun adını daha da yüksəldəsiniz. Mən isə deyirəm ki, yox, nə mən, nə də Yusif Səməd Vurğun ola bilməyəcəyik. Çünki o elə bir zirvəyə qalxıb ki, bizim o zirvəyə qalxmağa gücümüz çatmaz. Lakin bizim çiynimizdə ən ağır yük odur ki, biz gərək elə yaşayaq, elə çalışaq ki, Səməd Vurğunun oğlanları tərəfindən onu adına bir ləkə düşməsin. Buna mən söz verirəm.


***Fərman Xəlilov***
***Filologiya elmləri doktoru***

# Unudulan şəfa mənbəyi

Naxçıvanın təbiəti gözəl mənzərələri ilə yanaşı, həm də əsrlər boyu insanların şəfa mənbəyi kimi istifadə etdiyi sərvətləri ilə də yadda qalır. Bu sərvətlərdən biri də Duzdağ ərazisində yerləşən və zamanında insanlar arasında müalicəvi xüsusiyyətləri ilə tanınan şor su olub. Bu gün həmin su haqqında müxtəlif xatirələr yaşlı nəslin yaddaşında yaşayır. Onlardan biri də 93 yaşlı Gülgəz Kərimovadır.

Gülgəz nənə ilə söhbətimiz zamanı o, bizi təxminən yarım əsr əvvələ apardı. Deyir ki, 1980-ci illərdə qohum-qonşularla birlikdə tez-tez həmin şor suyun olduğu əraziyə gedərmişlər. Suyun təpələrin dibi ilə axdığını xatırlayan Gülgəz nənə bildirir ki, insanlar təpənin kənarında oturaraq əllərini və ayaqlarını suya salır, onun şəfalı təsirindən faydalanmağa çalışırdılar.

Gülgəz Kərimovanın oğlu Həmid Kərimlinin sözlərinə görə, əvvəllər həmin əraziyə getmək daha rahat idi. Belə ki, yerli sakinlərin "Taxta körpü" adlandırdığı yerdən müalicəvi şor suya birbaşa gedən yol mövcud olub. Onun sözlərinə görə, o illərdə hamı həmin yoldan istifadə edərək rahatlıqla suyun yanına gedirdi. Hazırda isə həmin yol mövcud deyil və əraziyə çatmaq üçün dolanbac yolla hərəkət etmək lazım gəlir. Həmid Kərimli bildirir ki, müalicəvi şor su Duzdağ istiqamətində yerləşən keçmiş hərbi poliqonun yaxınlığındakı



ərazidə yerləşirdi və yerli sakinlər həmin məkanı yaxşı tanıyırdılar.

Onun sözlərinə görə, həmin dövrdə insanlar bu suya böyük inam bəsləyirdilər. Müxtəlif ağrı və narahatlıqlardan əziyyət çəkən şəxslər bəzən 10 gün ardıcıl olaraq həmin əraziyə gələr, su və onun yaratdığı çöküntülərlə müalicə olunardılar.

Gülgəz nənənin yaddaşında xüsusilə bir hadisə daha canlı qalıb. O danışır ki, günlərin birində şor suyun yanına ayaqlarında ciddi problem olan bir qadını gətirmişdilər. Qadının qızı ilə söhbət zamanı məlum olub ki, onlar artıq beş gündür həmin əraziyə gəlirlər. Qızı anasının ayaqlarının tutulduğunu, lakin burada müalicə aldıqdan sonra vəziyyətinin xeyli yaxşılaşdığını və yenidən yeriməyə başladığını bildirib.

Maraqlıdır ki, həmin şor su torpaqla təmasda olduqda adi palçıq əmələ gətirmir, insanların "qarama" adlandırdığı qara rəngli kütləyə çevrilirmiş. Yerli sakinlər də daha çox bu qaramadan istifadə edirmişlər. Gülgəz nənənin xatırladığına görə, həmin qadının qızı da qaramanı anasının bədəninə sürtərək müalicə məqsədilə istifadə edib.

Həmsöhbətimiz bildirir ki, suyun duzluluğu o qədər yüksək olub ki, onu içmək mümkün deyilmiş. Lakin insanlar məhz bu suyun və onun əmələ gətirdiyi qaramanın müalicəvi təsir göstərdiyinə inanır, gördükləri nəticələrdən sonra bu inamları daha da möhkəmlənirmiş. Gülgəz nənə də həmin hadisədən sonra şor suyun şəfalı xüsusiyyətlərinə daha çox əmin olduğunu deyir.

İllər keçsə də, Duzdağın qoynunda gizlənən bu şor su ilə bağlı xatirələr bölgə sakinlərinin yaddaşında yaşayır. Bu suyun həqiqətən hansı xüsusiyyətlərə malik olduğu, tərkibində hansı mineralların olduğu və insan sağlamlığına təsirinin elmi baxımdan necə qiymətləndirildiyi isə ayrıca araşdırma mövzusudur. Bu baxımdan, gələcəkdə müvafiq elmi-tədqiqat müəssisələrinin mütəxəssisləri tərəfindən həmin ərazidə geoloji, hidrogeoloji və tibbi tədqiqatların aparılması, şor suyun müalicəvi xüsusiyyətlərinin elmi əsaslarla öyrənilməsi həm tariximizin maraqlı bir səhifəsinin işıqlandırılmasına, həm də bu təbii sərvətin potensialının müəyyən edilməsinə töhfə verə bilər.

***Elnurə Cəfərova***
***Jurnalistika ixtisası üzrə***
***IV kurs tələbəsi***

# Uğurlu gələcəyin açarı: Karyera planlaşdırılmasının ali təhsildə rolu

***Karyera anlayışı***

Karyera planı insanın malik olduğu bacarıq və maraqları müəyyənləşdirməsinə, gələcək peşə hədəflərini formalaşdırmasına və həmin məqsədlərə çatmaq üçün sistemli fəaliyyət proqramı hazırlamasına imkan verən praktik inkişaf strategiyasıdır. Bu proses fasiləsiz xarakter daşıyır və fərdin mövcud bilik, bacarıq, təcrübəsi ilə gələcək peşə perspektivlərini vahid sistemdə əlaqələndirir.

Karyera planlaşdırılması fərdin bacarıq və imkanlarının karyera məqsədləri ilə sistemli şəkildə uyğunlaşdırılması və onların həyata keçirilməsi üçün mövcud imkanların müəyyən edilməsidir. Bu baxımdan karyera planlaşdırılması yalnız gələcək peşənin seçilməsi deyil, həm də insanın öz potensialını düzgün qiymətləndirərək davamlı inkişaf yolunu müəyyənləşdirməsi deməkdir.

Karyera insanın əmək fəaliyyəti dövründə keçdiyi bütün inkişaf mərhələlərinin məcmusudur. Bu anlayış ali təhsil seçimi ilə başlayan və əmək fəaliyyətinin sonunadək davam edən bütün peşəkar inkişaf prosesini əhatə edir. Uzunmüddətli əmək fəaliyyətinin səmərəli nəticə verməsi üçün insanın öz potensialını düzgün istiqamətləndirməsi və fəaliyyətini planlı şəkildə təşkil etməsi vacibdir.

Ənənəvi idarəetmə yanaşmalarında karyera anlayışı əsasən rəhbər və idarəedici vəzifələrdə çalışan şəxslərin vəzifə yüksəlişi ilə əlaqələndirilirdi. Bu yanaşmada layihələrə təyinat, vəzifə dəyişikliyi və yüksəliş karyeranın əsas göstəricisi hesab olunurdu. Müasir dövrdə isə karyera anlayışı bütün əməkdaşları əhatə edən mühüm inkişaf amili kimi qəbul edilir. Müəssisələr əməkdaşlarının peşəkar inkişafına xüsusi diqqət yetirir, onların bilik və bacarıqlarının artırılması üçün müxtəlif imkanlar yaradırlar. Bununla yanaşı, əməkdaşların da öz karyeralarının formalaşdırılması və inkişaf etdirilməsi istiqamətində məsuliyyət daşıması vacib hesab olunur.



Karyeranı insanın peşə həyatında pillə-pillə yüksəldiyi inkişaf nərdivanına bənzətmək olar. İş həyatında uğur qazanmaq istəyən hər bir şəxs məqsədyönlü şəkildə karyerasını planlaşdırmalıdır. Çünki uğurlu karyeranın əsasını vaxtdan səmərəli istifadə, davamlı əmək və düzgün planlaşdırma təşkil edir.

Karyera planlaşdırılması hər bir işləyən insanın müəyyən dövrlərdə yenidən nəzərdən keçirməli olduğu mühüm prosesdir. Bəzən bu, yeni peşə istiqaməti seçmək zərurətindən, bəzən isə mövcud vəzifədə irəliləmək üçün atılacaq addımları müəyyənləşdirmək ehtiyacından irəli gəlir. Əsas məqsəd isə dəyişən əmək bazarına uyğunlaşaraq şəxsi inkişafı təmin etmək və gələcəyi müstəqil şəkildə formalaşdırmaqdır.

***Karyera planlaşdırılmasının əsas mərhələləri***

Karyera planlaşdırılması hər bir insanın bacarıq, maraq və gələcək hədəflərinə uyğun şəkildə fərdiləşdirilən davamlı inkişaf prosesidir. Müxtəlif ali təhsil müəssisələrində fəaliyyət göstərən karyera mərkəzləri və peşəkar məsləhətçilər tələbələrə bu istiqamətdə fərdi dəstək göstərir, həmçinin özəl təlim və məsləhət xidmətləri vasitəsilə də karyera planlaşdırılması üzrə peşəkar yardım almaq mümkündür.

Ümumilikdə, səmərəli karyera planlaşdırılması üç əsas istiqaməti özündə birləşdirir: özünü tanımaq, əmək bazarını öyrənmək və fəaliyyət planı hazırlamaq. Bu mərhələlər bir-biri ilə qarşılıqlı əlaqədə olub gələcək peşə uğurunun əsasını təşkil edir.

***Özünü tanımaq***

Karyera planlaşdırılmasının ilk və ən vacib mərhələsi insanın özünü düzgün qiymətləndirməsidir. Şəxsin dəyərlərini, maraqlarını, bacarıqlarını, peşə gözləntilərini və həyat məqsədlərini müəyyənləşdirməsi gələcək qərarların daha düzgün verilməsinə şərait yaradır.

Bəzən insanlar öz potensiallarını gec kəşf edir və ya həyatları ilə bağlı mühüm qərarlar onların əvəzinə başqaları tərəfindən qəbul olunur. Sonradan bu qərarların onların maraq və qabiliyyətlərinə uyğun olmadığını başa düşmələri isə həm vaxt itkisinə, həm də peşəkar inkişafın ləngiməsinə səbəb olur. Buna görə də insanın özünü tanıması yalnız karyera seçimi üçün deyil, ümumilikdə uğurlu həyat strategiyasının formalaşdırılması baxımından mühüm əhəmiyyət daşıyır.

***Əmək bazarının təhlili***

Karyera planlaşdırılmasının mühüm komponentlərindən biri də əmək bazarının sistemli şəkildə araşdırılmasıdır. Müasir əmək bazarı daim dəyişdiyindən fərdlər yalnız öz ixtisaslarını deyil, həmin sahədə mövcud və perspektivli peşələri, yeni yaranan ixtisas istiqamətlərini və işəgötürənlərin tələblərini də yaxından izləməlidirlər.

Bu məqsədlə ixtisas üzrə mövcud fəaliyyət sahələri ətraflı öyrənilməli, onların inkişaf perspektivləri, əmək bazarında rəqabət imkanları və gələcək məşğulluq potensialı qiymətləndirilməlidir. Belə təhlillər insanın daha düzgün peşə seçimi etməsinə və gələcək planlarını real imkanlara uyğun qurmasına kömək edir.

Karyera planlaşdırılması təsadüfi deyil, müəyyən mərhələlər üzrə həyata keçirilən sistemli prosesdir. Hər bir şəxs öz fərdi xüsusiyyətlərini nəzərə alaraq bu mərhələləri ardıcıl şəkildə yerinə yetirməli və lazım gəldikdə əlavə inkişaf addımları müəyyənləşdirməlidir. Məqsədlərin dəqiq müəyyənləşdirilməsi tələbələrdə uğur qazanmaq, özünü reallaşdırmaq və davamlı inkişaf etmək istəyini gücləndirir. Bu motivasiya onların özünəinamını artırır, çətinliklər qarşısında dözümlülüyünü möhkəmləndirir və qarşıya çıxan maneələri daha inamla aradan qaldırmasına şərait yaradır. Beləliklə, karyera planlaşdırılması yalnız peşə seçiminə deyil, həm də şəxsiyyətin formalaşmasına və gələcək uğurlarının təmin edilməsinə mühüm töhfə verir.

***Türkan İsmayıllı***
***"İngilis dili və metodika" kafedrasının müdiri,***
***filologiya üzrə fəlsəfə doktoru***

# Naxçıvan Dövlət Universiteti ən gözəl illərimin və qazandığım uğurların memarıdır

Universitet illəri təkcə divarlar arasında keçən mühazirələrdən, imtahan vərəqlərindən ibarət deyilmiş sən demə. Zaman keçib o qapıdan məzun kimi çıxanda insan geriyə baxır və anlayır ki, bura sadəcə təhsil ocağı yox, həm də xarakterin, gələcəyin formalaşdığı doğma bir məkandır.

Naxçıvan Dövlət Universiteti mənim üçün məhz belə bir doğma ocağa çevrildi. Hələ ilk addımlarımı atdığım birinci kursdan bu universitet mənə həm də cəmiyyətin, medianın bir parçası olmağı öyrətdi. NDU Tələbə Gənclər Təşkilatının Media sahəsində fəaliyyətə başlamağım mənim üçün böyük məsuliyyət və eyni zamanda unudulmaz bir təcrübə məktəbi oldu. İlk günlərdən etibarən universitetin irili-xırdalı yüzlərlə tədbirində, layihəsində iştirak etmək, o dinamikanın, o həyəcanın düz mərkəzində olmaq mənə öz güvənimi qazandırdı, qələmimi itilədi və peşəkar addımlarımın bünövrəsini qoydu.

Dörd il boyu bu auditoriyalarda, bu dəhlizlərdə o qədər fərqli xatirələr, o qədər dəyərli dərslər topladım ki, indi onların hər biri mənim üçün əvəzsiz bir xəzinədir. NDU bizə hər şeydən əvvəl azad düşünməyi, öz sözümüzü deməyi və düzgün bildiyimiz dəyərlərin arxasında durmağı öyrətdi. Çünki bu universitetin mühiti, onun tələbəsinə qazandırdığı dünyagörüşü elə bir səviyyədədir ki, insan buranı bitirəndə həm də cəmiyyətə faydalı bir fərd kimi yetişir. Biz tələbə olaraq burada sadəcə nəzəriyyə öyrənmədik, həm də həyatın özünü, insanlarla ünsiyyəti, komanda ilə işləməyi və ən əsası, obyektiv olmağı mənimsədik. Universitetimizin qazandırdığı bu qədər gözəl imkanlar, bu cür zəngin baza və yaradılan yüksək şərait fonunda, təbii ki, hər birimiz məzun tələbə olaraq məzun günümüz üçün də eyni ucalığı, eyni peşəkarlığı və mükəmməlliyi gözləyirdik. Yaxşı olan, insana bu qədər şey qazandıran bir ocağın məzunu da, şübhəsiz ki, hər mənada daha yaxşı, daha nümunəvi ola bilərdi və olmalıdır da. Bu universitetdə təhsil alanlar kimi bizim yeganə istəyimiz doğma universitetimizin adına yaraşan o ucalığı, o yüksək keyfiyyəti hər kəsin fəaliyyətində bütöv şəkildə görməkdir.



Amma nə olursa olsun, hər bir təcrübəsi ilə bura bizim doğma ocağımızdır. Naxçıvan Dövlət Universiteti mənim gəncliyimin, ən gözəl illərimin və qazandığım uğurların memarıdır. Bu dörd il mənə alacağım diplom ilə yanaşı, həm də heç vaxt unudulmayacaq bir tələbəlik ruhu bəxş etdi. Harada olursa olum, hansı zirvələri fəth edirəmsə edim, bu doğma ocağın mənim üzərimdəki əməyini və mənə qazandırdığı o ilk gözəl başlanğıcları həmişə böyük sevgi və minnətdarlıqla xatırlayacağam.

***Elnurə Cəfərova***
***Jurnalistika ixtisası üzrə***
***IV kurs tələbəsi***

Baş redaktor:
Şəhla Şirəliyeva
shehlashiraliyeva@ndu.edu.az

**Ünvan:** AZ 7012,
Naxçıvan şəhəri,
Universitet şəhərciyi
**Telefon:** 544-08-61 (1360)
yenifikir.ndu@gmail.com

Qeydiyyat № 330
Sifariş № 374
Tiraj 350

Dizayner:
SAHİLƏ ABBASOVA
"Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində ofset üsulu ilə çap olunmuşdur.